RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 160 (9039) BAZAR, 31 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## 25 İLİN UĞUR SALNAMƏSİ

### İlham Əliyevin MOK-un prezidenti seçilməsi ilə Azərbaycan Olimpiya hərəkatının yeni yüksəliş mərhələsi başladı



Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan bu gün həm də dünyada idman ölkəsi kimi tanınır. İdman sahəsində əldə edilən uğurlar, eləcə də Azərbaycanın mötəbər beynəlxalq yarışlara yüksək səviyyədə evsahibliyi etməsi bu nailiyyətləri şərtləndirən amillərdir.

Ancaq etiraf etməliyik ki, müstəqilliyinin bərpasından sonra, ötən əsrin 90-cı illərində Azərbaycanda mövcud olan böhran bir çox sahələrin, o cümlədən idmanın inkişafına da mənfi təsir etmiş, idman dövlət qayğısından kənarda qalmışdı. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi ilə idman sahəsi də ölkənin inkişaf istiqamətlərindən birinə çevrildi. Ümummilli Lider yaxşı bilirdi ki, ölkənin parlaq gələcəyinin təməli gənclər və idman siyasətinin yeridilməsini tələb edir. Buna görə də dahi liderin fərmanına əsasən, 1994-cü ildə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradıldı. Bu, Azərbaycanın müasir idman tarixinin başlanğıcı oldu. Bunun ardınca 1995-ci ildə Prezident yanında İdman Fondu yaradıldı.

Prezidentin imzaladığı fərmanda qeyd edilirdi ki, bu fondun yaradılmasında məqsəd ölkə əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahəyə ümumxalq yardımının təşkil olunması, gənclərin idmana marağını artırmaq, Azərbaycan idmanının beynəlxalq miqyasa çıxması üçün real zəmin yaratmaqdır. Bu məqsədlə Prezident fondundan müstəsna hal kimi İdman Fonduna 2 milyard manat məbləğində vəsait ayrıldı. Bütün bunlar Ulu Öndərin idmana nə qədər böyük önəm verdiyinin göstəricisi idi.

→ 4

## Bəzi "media vasitələri" söz azadlığından sui-istifadə edirlər

### Onların peşəkar jurnalistikaya heç bir aidiyyəti və bağlılığı yoxdur

Söz və fikir azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün münbit şəratin yaradılması demokratik inkişafın əsas meyarlarından biridir. Bu mənada ölkəmizdə demokratikləşmə istiqamətində həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsi kimi söz azadlığı tam təmin olunub, medianın inkişafı üçün gərəkən bütün addımlar atılıb.

Respublikamızda cəmiyyət həyatının bütün sahələrini əhatə edən islahatlar medianı da əhatə edib. Bir müddət əvvəl "Media haqqında" yeni qanunun qəbul olunması da bunu təsdiq edir. Yeni qanunun qəbulu göstərdi ki, Azərbaycan dövləti qlobal inkişafın yaratdığı yeni imkanlardan yerli medianın daha çox bəhrələnməsində, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılmasında maraqlıdır.

Görünən odur ki, ölkəmizdə media azadlığı tam təmin edilmişdir. Dünyanın çox az sayda ölkəsində media vasitəsinin yaradılması ilə bağlı Azərbaycanda olduğu kimi, sadə qaydalara rast gəlmək olar. İstənilən media orqanı və ya jurnalist sərbəst informasiya toplamaq, onu təhlil etmək və yaymaq imkanına malikdir. Sırf peşə etikasını və qanunları gözləməklə həyata keçirilən bu fəaliyyətə görə hələ indiyədək bir jurnalist və KİV hər hansı çətinliklə üzləşməyib.

Əlbəttə, onu da unutmaq lazım deyil ki, söz azadlığı geniş anlayışdır.

→ 5

## Tikinti fəaliyyətinin təkmilləşdirilməsi dövrün tələbidir

### **Prezident İlham Əliyev:** "Biz indi bu mərhələdə imkan verə bilmərik ki, inşaatda şəhərsalma normaları pozulsun"

Prezident İlham Əliyev bu günlər yeni təyin olunan icra hakimiyyətləri başçılarını qəbul edərkən çıxışında bir sıra vacib məsələlərlə yanaşı, xüsusən paytaxtda aparılan inşaat işlərində tikinti qaydalarına əməl olunmaması ilə bağlı iradlarını bildirmişdir: "Əfsuslar olsun ki, vaxtilə Bakı şəhərində inşa edilmiş bir çox hündürmərtəbəli binalar indi heç bir şəhərsalma normalarına uyğun gəlmir. Nə üçün? Çünki qanunsuz işlər görülüb... Amma biz indi bu mərhələdə imkan verə bilmərik ki, inşaatda şəhərsalma normaları pozulsun".

Çox yerində deyilən haqlı iraddır. Çünki tikinti iqtisadiyyatda sıradan bir sektor deyil. Bu sektor ən vacib fəaliyyət növlərindən biri olmaqla iqtisadiyyatın bütün sahələrinin əsas fondlarının və istehsal güclərinin yaradılmasında, proporsiyaların təkmilləşdirilməsində çox mühüm rol oynayır. Tikinti sektorunun ölkəmizin və onun regionlarının da iqtisadi və sosial inkişafında rolu, əhəmiyyəti böyükdür. Təkcə bir faktı qeyd edək: 2011-2020-ci illərdə ölkə iqtisadiyyatının əsas kapitalına investisiyaların 70 faizə qədəri (68,5 faiz) bilavasitə tikinti fəaliyyətinin vasitəsi ilə reallaşdırılmışdır. Başqa bir fakt: 2011-2020-ci illərdə ölkə üzrə ümumi sahəsi 31,8 milyon kvadratmetr olan yaşayış binaları tikilib istifadəyə verilmişdir. Yalnız 2020-ci ildə Azərbaycanda mənzil tikintisi 2010-cu illə müqayisədə 2,6 dəfə artaraq 5,2 milyon kvadratmetr təşkil etmişdir.

→ 6

## Prezidentin son fərmanı elm və ali təhsilin inteqrasiyasına yeni üfüqlər açır

### Bu sahədə idarəetmənin təkmilləşdirilməsi müasir səviyyədə inkişafa töhfə verəcək

Hər bir xalqın gələcəyinin müəyyənləşməsində təhsilin və elmin rolu mühümdür. İndi elə bir dövrdə yaşayırıq ki, dünyada yeni prioritetlər, yeni standartlar formalaşmaqdadır. Elm daha sürətlə inkişaf edir. Bu baxımdan ölkəmizdə təhsilin və elmin inkişafı məqsədilə köklü islahatların həyata keçirilməsi olduqca vacibdir. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2022-ci il 28 iyul tarixli Fərmanda elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə mühüm struktur dəyişiklikləri əksini tapıb. Elm və təhsilin müasir tələblər səviyyəsində inkişafı baxımından mühüm əhəmiyyətə malik olan fərmanda qarşıya yeni vəzifələr qoyulub.

İlk addımlar atılıb. Dövlət başçısının "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanına əsasən, Təhsil Nazirliyinin adı dəyişdirilərək Elm və Təhsil Nazirliyi adlandırılıb.

→ 5

## AÇG doqquzuncu platformasının yolunu gözləyir



→ 6

## Şuşa zirvəsi

### Ölkəmizdə baş tutan bütün mötəbər tədbirlərə, beynəlxalq toplantılara mədəniyyət paytaxtımızda uğurlu yekun vurulur

Qarabağın baş tacı Şuşa 8 noyabr 2020-ci ildə qəhrəman Azərbaycan oğulları tərəfindən şücaətlə azadlığına qovuşdurulandan sonra tarixi şan-şöhrətini bərpa etməyə başlayıb. Parlaq zəfərimizdən qısa zaman sonra işğaldan azad edilən bütün torpaqlarımızda olduğu kimi, mədəniyyət paytaxtımızda da genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. Şuşanın tarixi əzəmətinin, mədəni ruhunun özünə qaytarılması üçün hərtərəfli işlər görülməyə başlanılıb.

270 illik əzəmətli tarixə malik olan qala şəhərimiz getdikcə təkcə Azərbaycanın deyil, Qafqazın mədəni və diplomatik mərkəzinə çevrilir. Azadlığının üzərindən çox qısa müddət ötməsinə baxamayaraq, qədim şəhərimiz beynəlxalq tədbirlərə, festival, forum və konfranslara müvəffəqiyyətlə evsahibliyi edir.

Artıq bu xoş bir ənənəyə çevrilib ki, ölkəmizdə baş tutan bütün mötəbər tədbirlərə, beynəlxalq toplantılara qələbəmizin rəmzi Şuşada uğurlu yekun vurulur.

Zəfər yolu ilə Şuşaya səfər edən beynəlxalq ictimaiyyət nümayəndələri də Şuşanın timsalında Qarabağımızın necə maddi-mədəni zənginliklərə malik olduğunu öz gözləri ilə görürlər. Azərbaycanın bu füsunkar təbiətli diyarını, burada var olan milli ənənələri, tolerantlıq əhvalını, mədəni irsi böyük heyranlıqla seyr edirlər.

→ 2

# Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə

Əlahəzrət!

Əziz Qardaşım!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda qardaş Mərakeş xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan-Mərakeş ənənəvi dostluq əlaqələrini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı maraq doğuran əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2022-ci il*



# Gürcüstanın Prezidenti zati-aliləri xanım Salome Zurabişviliyə

Hörmətli xanım Prezident, Qudauridə sərhəd polisinə məxsus helikopterin qəzaya uğraması nəticəsində heyət üzvlərinin və xilasedicilərin həlak olması barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu ağır faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Gürcüstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2022-ci il*

# Baş nazir Əli Əsədov gürcüstanlı həmkarına başsağlığı verib



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə başsağlığı məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov Gürcüstanın Qudauri bölgəsində baş vermiş helikopter qəzası nəticəsində insan tələfatı xəbərindən kədərləndiyini bildirib. Faciə ilə əlaqədar Baş nazir İ.Qaribaşviliyə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstan parlamentinin Sədrinə başsağlığı məktubu ünvanlayıb




Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstan parlamentinin Sədri Şalva Papuaşviliyə Qudauri bölgəsində sərhəd polisi helikopterinin qəzaya uğraması nəticəsində insanların həlak olması ilə əlaqədar başsağlığı məktubu ünvanlayıb.

Məktubda deyilir: "Bu ağır faciə ilə əlaqədar şəxsən öz adımdan və Azərbaycan Respublikası Milli Məclisinin deputatları adından Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Gürcüstan xalqına dərin hüznlə başsağlığı verirəm".

***"Azərbaycan"***

# "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında" Müqavilənin təsdiq edilməsi və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında pensiya təminatı sahəsində vətəndaşların hüquqlarının zəmanətləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında" 2022-ci il aprelin 26-da Bakı şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

2. "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında pensiya təminatı sahəsində vətəndaşların hüquqlarının zəmanətləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2001-ci il 3 aprel tarixli 114-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 368) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2022-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" 2022-ci il mayın 18-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445, № 6 (I kitab), maddə 566, № 10, maddə 1114, № 12, maddə 1406; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1694 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.2.8-ci bəndə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi," sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 4.1.3-1-ci yarımbənd əlavə edilsin:

"4.1.3-1. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051,1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.8-ci bəndinə "nazirindən" sözündən sonra ", Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədrindən" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2022-ci il*

# Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib

İyulun 30-da Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmə komandirlərinin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə keçirilən bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə Azərbaycan Ordusuna yüksək qiymət verildiyini diqqətə çatdıran müdafiə naziri dövlət başçısı tərəfindən səsləndirilən fikirlərin Azərbaycan Ordusunun qarşısında qoyulan vacib tapşırıqlar olduğunu bildirib.

Azərbaycan-Ermənistan dövlət sərhədindəki, eləcə də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi zonasındakı əməliyyat şəraitini və mövcud vəziyyəti geniş təhlil edən nazir qarşı tərəfin törədə biləcəyi istənilən təxribatın qarşısının dərhal və qətiyyətlə alınmasına daim hazır olmağı əmr edib.

Döyüş hazırlığı prosesinin altı aylıq yekun nəticələrinə əsasən qoşunlarda yoxlamaların keçiriləcəyi müşavirə iştirakçılarının diqqətinə çatdırılıb.

General-polkovnik Z.Həsənov yeni tədris dövründə hərbi qulluqçuların peşəkarlığına və qoşunların döyüş hazırlığına diqqət yetirilməsinə, təlimlərin və səhra məşğələlərinin intensivliyinin artırılmasına, eləcə də bölmələrin döyüşə hazırolma səviyyəsinin yüksək səviyyədə saxlanmasına dair xüsusi göstərişlər verib.

Müdafiə naziri bölmələrdə qışa hazırlıq işlərinin plana əsasən tamamlanması, xüsusilə dağlıq ərazilərdə dislokasiya olunan bölmələrə lazımi ehtiyatların vaxtında çatdırılması, gənc əsgərlərin qəbulu, müvafiq bölmələrdə yerləşdirilməsi, həmçinin hərbi andiçmə mərasimlərinə hazırlıq işlərinin yüksək səviyyədə təşkil olunması barədə aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verib.

Gündəlik xidməti fəaliyyətdə təhlükəsizlik qaydalarına riayət olunmasını təhlil edən general-polkovnik Z.Həsənov bu qaydaların şəxsi heyətə mütəmadi olaraq çatdırılması və onlar tərəfindən ciddi əməl olunmasına daim nəzarət edilməsinin vacibliyini xüsusi vurğulayıb.

Müşavirənin sonunda qoşun xidmətinin təşkili, xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, həmçinin mühəndis təminatı üzrə zəruri tədbirlərin davam etdirilməsi ilə əlaqədar vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

# Şuşa zirvəsi

## Ölkəmizdə baş tutan bütün mötəbər tədbirlərə, beynəlxalq toplantılara mədəniyyət paytaxtımızda uğurlu yekun vurulur

Qarabağın baş tacı Şuşa 8 noyabr 2020-ci ildə qəhrəman Azərbaycan oğulları tərəfindən şücaətlə azadlığına qovuşdurulandan sonra tarixi şan-şöhrətini bərpa etməyə başlayıb. Parlaq zəfərimizdən qısa zaman sonra işğaldan azad edilən bütün torpaqlarımızda olduğu kimi, mədəniyyət paytaxtımızda da genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. Şuşanın tarixi əzəmətinin, mədəni ruhunun özünə qaytarılması üçün hərtərəfli işlər görülməyə başlanılıb.




270 illik əzəmətli tarixə malik olan qala şəhərimiz getdikcə təkcə Azərbaycanın deyil, Qafqazın mədəni və diplomatik mərkəzinə çevrilir. Azadlığının üzərindən çox qısa müddət ötməsinə baxamayaraq, qədim şəhərimiz beynəlxalq tədbirlərə, festival, forum və konfranslara müvəffəqiyyətlə evsahibliyi edir.

Artıq bu xoş bir ənənəyə çevrilib ki, ölkəmizdə baş tutan bütün mötəbər tədbirlərə, beynəlxalq toplantılara qələbəmizin rəmzi Şuşada uğurlu yekun vurulur.

"Zəfər yolu" ilə Şuşaya səfər edən beynəlxalq ictimaiyyət nümayəndələri də Şuşanın timsalında Qarabağımızın necə maddi-mədəni zənginliklərə malik olmasını öz gözləri ilə görürlər. Azərbaycanın bu füsunkar təbiətli diyarını, burada var olan milli ənənələri, tolerantlıq əhvalını, mədəni irsi böyük heyranlıqla seyr edirlər.

### Qala şəhərimizdə ənənəvi mədəni həyat öz axarına düşüb

Ötən il Prezident İlham Əliyevin sərəncamına əsasən, Şuşa mədəniyyət paytaxtımız elan edilərkən şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği başlıca məqsədlər kimi müəyyən olunub.

Bu tarixi qərardan dərhal sonra Qarabağın mirvarisi olan əzəmətli şəhərdə ənənəvi mədəni həyat öz məcrasına düşüb. Bu ənənənin ilk carçısı isə ötən il mayın 12-si və 13-də qala şəhərimizdə keçirilən "Xarıbülbül" festivalı oldu. Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxış etdiyi, xalq və klassik musiqi nümunələrindən ibarət proqramın təqdim olunduğu festivalda xalqımız bir daha birgəliyini, həmrəyliyini təntənəli şəkildə nümayiş etdirdi.

Vaxtilə Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və ermənilərin işğalçılıq siyasəti nəticəsində yarımçıq qalan mədəni tədbirlərimizdən olan "Vaqif Poeziya Günləri" də 30 avqustda yenidən Şuşada keçirildi.

18 sentyabr Milli Musiqi Gününü də ötən ilin həmin günündə dahi Üzeyir bəyin doğma şəhəri Şuşada, elə dahi bəstəkarın heykəlinin yerləşdiyi parkda təntənəli şəkildə qeyd etdik.

2021-ci ilin 15 iyununda isə Şuşa daha bir tarixi hadisənin gerçəkləşdiyi qürurlu ünvan oldu. Mədəniyyət paytaxtımızda Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında möhtəşəm Şuşa Bəyannaməsi imzalandı.

### İnkişaf, qələbə, sülh rəmzi

Bu ili isə başdan-başa Şuşa ili kimi qeyd edirik. Elə bu müstəsna statusa uyğun olaraq da ötənilki kimi bu il də Şuşa mötəbər tədbirlərə evsahibliyi edib və daha neçə-neçə təntənəli tədbirlərin keçirilməsinə hazırlaşır.

Mədəniyyətimizin paytaxtında gerçəkləşən belə mühüm tədbirlərdən biri martın 18-də şəhərdə Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı oldu. Çoxşaxəli əməkdaşlığı özündə ehtiva edən Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş bu toplantının məhz Şuşada keçirilməsi xüsusi rəmzi məna daşıyırdı.

Azərbaycan parlamentinin komitə iclaslarının da Şuşada keçirilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfərin möhtəşəm nəticələrindəndir.

Bir müddət əvvəl dünya azərbaycanlıları da mədəniyyət paytaxtımıza yığışdılar və təntənə ilə Zəfər qurultaylarını keçirdilər. Sayca 5-ci olan bu fəxarətli qurultayda azad Qarabağda, azad Şuşada toplaşan həmvətənlərimiz öz sarsılmaz və əbədi həmrəyliklərini bir daha bəyan etdilər.

### Qafqazın diplomatiya mərkəzi

Azərbaycanın mədəniyyət paytaxtı gün keçdikcə yeni statuslara da sahib olur. Bu gün Şuşa həm də dünyada Qafqazın diplomatiya mərkəzi kimi tanınır. "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" adlı beynəlxalq forumun da Şuşada təşkil olunması buna bariz nümunə, həm də onun göstəricisidir ki, Şuşa regional əhəmiyyətə malik şəhərdir.

Bu il 12-14 may tarixlərində keçirilən beynəlxalq statuslu "Xarıbülbül" festivalı da dünyaya bir daha səs saldı. Müxtəlif ölkələrdən gələn folklor kollektivləri festivalda möhtəşəm çıxışlar edərək Qarabağımızın baş tacından mədəniyyət carı çəkdilər.

Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransında iştirak edən dövlətlərin parlament nümayəndə heyətləri də dəyişilməz ənənəyə sadiq qalaraq mayın 18-də yollarını Azərbaycanın mədəniyyət paytaxtından saldılar. Türkiyə, Pakistan, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan parlament nümayəndə heyətləri Şuşaya sözügedən səfərlərində mədəniyyət paytaxtımızda aparılan tikinti-quruculuq işləri ilə yaxından tanış oldular.

Xüsusilə vurğulayaq ki, bu gün bütün dünya Şuşanı Azərbaycanın qələbə rəmzi sayır, "Qarabağ Azərbaycandır!" həqiqətinin möhür ünvanı kimi tanıyır.

Elə bu il iyun ayında paytaxtımızda keçirilən növbəti "Formula-1" Azərbaycan Qran-prisi kubokunun qədim şəhərimiz Şuşanın 270-ci ildönümünə həsr olunması da buna daha bir möhtəşəm nümunə oldu. Zəngin irsimizin elementlərini özündə birləşdirən yarışın rəsmi mükafatı Azərbaycanın əzəli torpaqlarına - Şuşaya qovuşması və "Şuşa ili" münasibətilə şəhərin ən qədim abidələrindən sayılan Yuxarı Gövhər ağa məscidinin minarələrinin elementlərini əks etdirdi.

### Qlobal əməkdaşlıq platforması

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak edən nümayəndə heyətlərinin üzvlərinin iyulun 2-də Şuşaya səfər etmələri Zəfər qalamızın qlobal əməkdaşlıq platformasına çevrilməsinin daha bir təntənəli nümayişi idi. Ölkəmizə gələrək Qarabağa səfər edən dünya ictimaiyyətinin digər nümayəndələri kimi, QH Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak edən nümayəndə heyətlərinin üzvləri də Şuşada olarkən bir daha işğalçı ermənilərin vandallıqlarını, eləcə də Azərbaycanın işğaldan azad etdiyi tarixi torpaqlarında qısa müddət ərzində gördüyü böyük işlərin fonunda dövlətimizin gücünü və əzmini gördülər.

İyulun 14-də isə Vaqif Poeziya Günlərində şeir, sənətsevərlər bir daha Şuşada toplaşdılar, Qarabağ torpağında yenidən şeir, qəzəl sədaları yayıldı, muğam səsləndi.

Qarabağımızın baş tacı Şuşada yazılan növbəti tarixi günlərdən biri də iyulun 22-də - Milli Mətbuat Günündə yaşandı. Mədəniyyət paytaxtımızda Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumu keçirildi. Tədbirdə ölkə jurnalistləri, işğal altındakı torpaqlarımızın azad olunmasında iştirak edən bir qrup qazi, 20-dək ölkədən xarici media nümayəndələri və ekspertlər iştirak edirdilər.

Tarixi şəhərimizdə keçirilən sonuncu tədbirlərdən biri isə Qoşulmama Hərəkatının (QH) Gənclər Sammitinin Şuşa sessiyası oldu. 29 iyulda 60-dan artıq QH üzv ölkəsini təmsil edən nümayəndə heyəti Şuşa şəhərinə yollandı və QH Gənclər Sammitinin bir neçə gün ərzində davam edən fəaliyyətinə Şuşa sessiyası ilə yekun vuruldu. Belə ki, sammit iştirakçılarının 25-28 iyul tarixlərində keçirilmiş Bakı sessiyasında razılaşdırdıqları sənədlər Şuşada qəbul edildi.

### Türk dünyasının qürur mənbəyi

Qarşıdakı zamanda da qədim yurdumuzda yerli və beynəlxalq əhəmiyyətli xeyli tədbirlərin keçirilməsi gözlənilir.

Şuşa təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının qürur ünvanıdır. Buna görədir ki, Zəfər simvolumuz Şuşa 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olmaq kimi müstəsna missiyanı da qürurla yerinə yetirəcək.

Şuşada həyata keçirilən və yuxarıda da bəzi nümunələrini verdiyimiz bütün bu tədbirlər Qarabağımızın baş tacının adına, şöhrətinə yaraşaraq hərtərəfli inkişaf etdiyinin, ənənəvi tarixi günlərinə qovuşduğunun bariz göstəricisidir.

Bəli, bu gün mədəniyyət paytaxtımız bütün dünyada möhtəşəm festivalların keçirildiyi, əlamətdar beynəlxalq tədbirlərin baş tutduğu, tarixi bəyannamələrin imzalandığı şəhər kimi tanınır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanda insan amilini yüksək tutan siyasət yürüdülür



Bu dünyada alınıb satılmayan, bağışlanması mümkün olmayan tək bir şey varsa, o da insan ömrü, insan sağlamlığıdır. Hər bir insanın öz sağlamlığının qayğısına qalması, onu qoruması ən vacib məsələlərdəndir. Elə bu səbəbdən də vətəndaşının daim arxasında duran dövlətimizin siyasətinin mərkəzində insanların sağlamlığı durur. Azərbaycan hökuməti bu istiqamətdə bütün mümkün olan addımları atır.

Ölkə rəhbərinin insan amilinə verdiyi önəm, görülən işlərdə bu önəmin daha qabarıq şəkildə özünü büruzə verməsi təbii ki, qürur doğurur və eyni zamanda hər kəsdən üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirməyi bir tələb kimi qarşıya qoyur. Bu gün ölkəmizdə səhiyyə sisteminin inkişafı, onun maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yenilənməsi istiqamətində mühüm işlərin görüldüyü inkarolunmazdır. Dövlət başçısının təşəbbüsü ilə bu sahədə həyata keçirilən layihələr, aparılan islahatlar, tikilən səhiyyə ocaqları, ən müasir tibbi avadanlıqların alınaraq ölkəmizə gətirilməsi bir məqsədə - əhalinin sağlamlığının qorunması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.

Son illər bütün dünya COVID-19 pandemiyası ilə bəşəriyyəti sınağa çəkən, ölümlə təhdid edən bir fəlakətlə üzüzə qalmışdı. Bu gözəgörünməyən bəla ən oturuşmuş dövlətləri belə öz məngənəsində sıxması, sınağa çəkməsi gözlərimiz önündə baş verirdi. İnamla deyə bilərik ki, COVID-19 pandemiyasına qarşı mübarizədə dövlətimizin vaxtında gördüyü tədbirlər, bu sahədə dövlət başçısının qətiyyətli addımları xalqımızı bu bəladan da az itki ilə çıxartdı. Xəstəliklə mübarizə üçün bütün tədbirlər zamanında görüldü, peyvənd preparatları vaxtında alınıb gətirildi. Ölkə vətəndaşları tək olmadıqlarını, arxalarında qüdrətli bir liderin, güclü bir dövlətin durduğunu hər an hiss etdi.

## Heydər Əliyev Fondu - ümidin ünvanı

Bu məqamda insanlarımızın sağlamlığının qorunmasında dövlətimizlə yanaşı, Heydər Əliyev Fondunun da misilsiz xidmətlərini qeyd etmək lazımdır. Xüsusilə də ana və uşaqların sağlamlığının qorunması fondun fəaliyyətinin prioritet istiqamətidir desək, yanılmarıq. Fondun rəhbəri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən tədbirlər genefondumuzun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı surətdə həllinə yönəlib. Özü də görülən işlərin coğrafiyası təkcə paytaxt Bakını əhatə etmir, respublikamızın bütün regionlarında, hətta dünyanın bir sıra ölkələrində uğurla həyata keçirilir. İmkansıza, zəifə arxa durmaq, kömək etmək ən nəcib iş hesab edilir. Yarandığı gündən indiyədək Heydər Əliyev Fondu özünü nəcib əməllərin, xeyir işlərin ünvanı kimi təsdiq edərək insanların sevgisini qazanımış, ümid yeri ola bilmişdir. Necə deyərlər, fond arxasıza dayaq, köməksizə, kimsəsizə arxa olub...

Bəzi faktlara müracət edək. Respublikamızda kor və ya görmə qabiliyyəti zəif olan şəxslərin sayı təxminən 40 min nəfərdir. Fond bu cür insanların əlavə informasiya-kommunikasiya texnologiyalarından istifadə etmə imkanlarını təmin etmək məqsədilə ölkəmizdə ilk dəfə BMT-nin İnkişaf Proqramı ilə birgə layihə həyata keçirib. "Kor və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair" üç mərhələdən ibarət layihəni gerçəkləşdirib. Bu gün internat məktəblərində görmə qabiliyyəti zəif olan uşaqlar üçün model İKT sinifləri yaradılaraq xüsusi kompüter avadanlıqları quraşdırılıb, proqram təminatının lokallaşdırılması, internetə çıxışın təmin olunması məqsədilə xüsusi olaraq tədris-təlim proqramları hazırlanaraq həyata keçirilir. Bu məqsədlə kor və görmə qabiliyyəti zəif olan uşaqlar üçün kitabxana və təlim mərkəzləri yaradılıb. Audio-kitabxana və bütün növ ədəbiyyatı audio formata çevirmək üçün səsyazma studiyası təşkil edib.

Eyni zamanda əhalinin sağlamlığının təmin olunmasına, səhiyyə sahəsində problemlərə diqqət həmişə Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqaməti olub. Görülən işlərin kataloquna nəzər salarkən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi haqqında xüsusi qeyd etməyi vacib bilirik. Fondun Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın yüksəkkeyfiyyətli insulin istehsalı sahəsində dünyada lider olan Novo Nordisk şirkəti ilə birgə layihəsinin əsas məqsədi ictimaiyyətin, yerli və xarici şirkətlərin diqqətini ölkəmizdəki diabetli uşaqların problemlərinə yönəltmək, bunların həllinə kömək etmək və Beynəlxalq Diabet Federasiyasının bu sahədə iştirakını fəallaşdırmaq idi. Azərbaycanda bu xəstəliyə tutulmuş 14 yaşınadək uşaqların insulinlə təminatında böyük çətinliklər mövcud idi. Layihə çərçivəsində həmin uşaqlara yarımillik insulin preparatları və şpris-qələmlər verilmişdir. 2005-ci ilin may ayından başlayaraq Heydər Əliyev Fondu tərəfindən hər növbəti yarım il üçün insulin preparatları və şpris-qələmlər paylanılır və bu iş bu gün də müntəzəm davam edir.

## İnsanların sağlamlığı naminə böyük işlər görülür

Ölkəmizdə talassemiya xəstəliyinin qarşısının alınmasına yönəldilmiş tədbirlər də fondun insanların sağlamlığı sahəsində gördüyü mühüm işlərdəndir. Respublikanın bəzi rayonlarında bu xəstəlik geninin yayılma tezliyi xüsusi təşviş doğurduğundan, Heydər Əliyev Fondunun diqqətindən kənar qalmamışdır.

Bu nüfuzlu qurumun həyata keçirdiyi "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində müasir avadanlıqla təchiz olunmuş Talassemiya Diaqnostika Mərkəzinin yaradılmasını qeyd etməmək mümkün deyil. Beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycanda yüksəkixtisaslı kadrların hazırlanması üçün bu sahədə təcrübəsi olan ölkələrlə mütəxəssis mübadiləsi edilərək yerli kadrların hazırlanmasına diqqət artırılmışdır. Heydər Əliyev Fondu tərəfindən Almaniyanın "Frezerius" şirkətinin istehsalı olan hemodializ aparatı xəstəxanalara hədiyyə edilmişdir. Qeyd edək ki, bu aparatlar xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin əzablarının yüngülləşdirilməsində müstəsna rola malikdir. Hazırda Azərbaycanda hemodializə ehtiyacı olan xəstələr xüsusi olaraq qeydiyyatdadır ki, bunların da əksəriyyəti pulsuz müalicə alırlar.

Eyni zamanda yeni xəstəxanaların, poliklinikaların tikilməsi, təmirə ehtiyacı olan səhiyyə müəssisələrinin yenidən bərpası, yeni sağlamlıq mərkəzlərinin açılması istiqamətində də proqressiv addımlar atılmışdır. Bakı şəhərindən tutmuş respublikanın ən ucqar rayonlarına qədər inşa edilib istifadəyə verilən tibb müəssisələri arxitektura baxımından tikildiyi ərazinin gözəlliyinə rəng qatmaqla yanaşı, ən müasir tibbi avadanlıqlarla təminatı, yüksək tibbi xidməti ilə də fərqlənir. Bu gün Azərbaycanın ən ucqar rayonunun vətəndaşının müayinə və müalicə üçün Bakıya gəlməsinə heç bir lüzum yoxdur. Vətəndaşlarımızın yaşadığı rayonda diaqnostika olunub, yüksək səviyyədə müalicə almaları üçün geniş şərait yaradılıb. Savadlı tibbi kadrların yetişdirilməsi, xaricdə təhsil almaları üçün hər cür qayğı və diqqət göstərilir, tədris xərcləri ödənilir... Bir qalır vətəndaşa vicdanlı xidmət göstərmək.

Biz bir xalq olaraq hələ də müzəffər Azərbaycan Ordusunun qazandığı zəfərin sevincini yaşayırıq. 44 günlük müharibədə ən yeni tariximizin şərəf salnaməsini yazan igidlərimiz, vətən sevgisini ailədən, məktəbdən alıb mənəvi zənginliyin zirvəsinə yüksələn gənclərimiz də, onların sağlamlıq məsələləri də daim diqqətdədir. Bir sözlə, aparılan siyasət göz önündədir, nəticə də bəlli. Bizcə əlavə şərhə ehtiyac yoxdur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*





## 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

# Tarixi keçmişimizi özündə yaşadan ana dilimiz

### Azərbaycan dilinin dövlət dili kimi inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır

Ana dili və əlifba hər bir xalqın mənəvi sərvətidir. Bu mənəvi sərvətin inkişafında, qorunmasında, onun dünya dilləri içərisində öz layiqli yerini tutmasında dilimizin zənginliklərinə bələd olan Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Azərbaycan dilinin dövlət dili kimi inkişafı Ümummilli Liderin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil dövlətimizin Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan olunmuşdur.

## Böyük rəhbərin ana dilimizə qayğısı

Ümummilli Lider Heydər Əliyevin ilk gündən yeritdiyi dil siyasəti bir məqsədə xidmət etmişdir: ana dilini inkişaf etdirmək, onun dövlət statusunu reallaşdırmaq, dünya dilləri arasında nüfuzunu artırmaq. "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm", - deyən dahi rəhbər uzaqgörən fəaliyyəti ilə milli dil siyasətini yürüdə biləcək tarixi əhəmiyyətli dövlət qərarlarına imza atmışdır. Bu mənada, dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisəyə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyev tərəfindən dilimizin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilmişdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğının göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşımışdır.

Filologiya elmləri doktoru, professor Sayalı Sadıqova deyib ki, Azərbaycan müstəqilliyini qazandıqdan sonra milli şüurun inkişafı və demokratik cəmiyyətin yaranması ana dilimizin tətbiq sahəsini genişləndirməyi zərurətə çevirdi: "1990-cı ildə Azərbaycan Əlifba Komissiyası yaradılmış və görkəmli dilçi alim Afad Qurbanov sədr vəzifəsinə təyin edilmişdir. Əlifbanın müxtəlif variantları təklif olunsa da yeni əlifbanın yaradılmasında latın qrafikasının vacib tərəfləri elmi faktlara söykənərək əsaslandırılmış, 1991-ci ilin dekabrında A.Qurbanovun tərtib etdiyi latın qrafikalı əlifba rəsmi olaraq qəbul edilmişdir. 25 dekabr 1991-ci ildə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" qanunun qüvvəyə minməsi haqqında 34 saylı qərarla ölkəmiz rəsmi olaraq latın qrafikalı əlifbaya keçmişdir. İlk dövrlərdə rəsmi sənədlərdə paralel olaraq həm latın, həm də kiril qrafikalı əlifbadan istifadə olunmuş və tədricən latın qrafikalı əlifbaya keçilmişdir".

Qəbul edilmiş əlifbanın tətbiqi problemlərinin həllində, beynəlxalq aləmə daha yaxın olan latın qrafikalı Azərbaycan əlifbasına keçid prosesinin sürətləndirilməsində Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli fərmanı mühüm əhəmiyyət kəsb etmişdir. Fərmanda Azərbaycan dilinin tarixi inkişaf yolları, habelə müstəqil dövlətçilik atributu kimi rolu və funksiyası göstərilmiş, on il ərzində tətbiqi vəziyyəti hərtərəfli nəzərdən keçirilmişdir. Eyni zamanda problem və nöqsanlar müəyyənləşdirilərək onların aradan qaldırılması barədə müvafiq tapşırıqlar verilmişdir. Tam olaraq 2001-ci il avqust ayının 1-dən latın qrafikalı Azərbaycan əlifbasına keçilməsi qərara alınmışdır. Sənəddə on ilə yaxın müddətdə latın qrafikalı Azərbaycan əlifbasına keçid ölkəmizdə 2001-ci il avqust ayından bütövlükdə təmin edilmişdir.

## Dövlətin dil siyasəti

Ümummilli Lider Heydər Əliyev dil məsələsinə dövlət siyasətinin tərkib hissəsi kimi yanaşırdı. Qeyd edirdi ki, xalqın, millətin, insanın öz ana dilindən əziz heç nəyi ola bilməz. Məhz ana dilinə dövlət səviyyəsində belə yanaşmanın nəticəsidir ki, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli Prezident fərmanı ilə xalqımızın əlamətdar günləri sırasına biri də əlavə olunmuşdur. Ulu Öndərin ana dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğundakı ideya istiqaməti bu gün də müasir siyasi baxışlara uyğun səviyyədə aparılmaqdadır. Bu istiqamətdə atılmış vacib addımlardan biri də Ümummilli Lider Heydər Əliyevin 30 sentyabr 2002-ci ildə imzaladığı "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu qanunda Azərbaycan dili müstəqil dövlətçiliyin atributlarından biri olaraq qəbul edilmiş, onun digər dillər arasında yaşaması və təkmilləşdirilməsi sahəsində konseptual ideyalar irəli sürülmüşdür. Belə bir qanunun qəbulu ölkə rəhbəri tərəfindən dövlətin milli dil, milli kimlik siyasətinin uğurla aparılmasının nəticəsi olaraq ictimai xarakter daşımış və bununla yanaşı, həm də ana dilinə dövlət dili statusu qazandırmışdır.

Sayalı Sadıqova qəzetimizə açıqlamasında deyib ki, dövlət dilimizin adının Azərbaycan dili kimi təsbit olunması tarixilik və dövlətçilik baxımından demokratik tərzdə hərtərəfli əsaslandırılıb: "Bununla da dilimizin adı və məzmunu həm siyasi, həm də elmi cəhətdən birmənalı şəkildə təsbit olundu. Ümummilli Lider dilimizin saflığını, mənəvi zənginliyini qorumağın vacibliyini çıxışlarında hər zaman vurğulayır, dövlət idarəçiliyində bu zəruri şərtə əməl etməyin vacibliyini önə çəkirdi. Bununla yanaşı qeyd edirdi ki, Azərbaycan dili dünyanın inkişaf etmiş dillərindən olduğundan müasir dövrün ən müxtəlif ictimai-siyasi, elmi-mədəni, fəlsəfi-intellektual məzmun və hadisələri, informativ mənzərəsi bu dildə çevik şəkildə əksini tapa bilir".

## Ulu Öndərin siyasi xəttinə sadiqlik

Ümummilli Liderin ideyalarını layiqincə davam etdirən Prezident İlham Əliyev də doğma dilimizin inkişafına böyük həssaslıqla yanaşır. Qətiyyətlə deyə bilərik ki, bu gün ana dilimizin inkişafının əsas qarantı məhz ölkə Prezidenti və onunla çiyin-çiyinə möhtəşəm layihələrə imza atan Birinci vitse-prezident Mehriban Əliyevadır.

Prezident İlham Əliyev tərəfindən 2004-cü il yanvarın 12-də imzalanmış "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam ilə hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanır. Həmin il yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il dekabrın 30-da "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarla ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşib. Müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Azərbaycan Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilməsi milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisədir. Dövlət proqramının məqsədi Azərbaycan dilinin istifadəsinə və tətbiqinə dövlət qayğısının artırılması, ana dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasıdır.

Professor Sayalı Sadıqova bildirir ki, bu müddət ərzində elmin, demək olar ki, bütün sahələrinə aid 150-yə yaxın terminoloji lüğət nəşr olunmuşdur. Onların arasında həcmcə çox böyük izahlı, iki və üç dilli lüğətlər diqqəti cəlb edir: "Sərəncamda Azərbaycan dilində termin yaradıcılığı sahəsində işlərin tənzimlənməsi və koordinasiya edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası yaradılmışdır. Müxtəlif elm sahələrinə aid terminoloji lüğətlərin elektron variantlarının virtual məkanda yerləşdirilməsi Azərbaycan dilinin terminoloji arealının müasir metodlarla zənginləşməsini zəruri edir. Bu nəzərə alınaraq AMEA Rəyasət Heyətinin qərarı ilə Terminologiya Komissiyasının veb-portalı yaradılmışdır. Veb-portalın yaradılmasında əsas məqsəd dilimizdə olan mövcud terminoloji lüğətləri ilk dəfə olaraq vahid mərkəzə toplamaq, elmin, texnikanın müxtəlif sahələrində çalışan mütəxəssislərə terminlərin izahını və müxtəlif dillərdə qarşılığını asanlıqla əldə etməyə yardımçı olmaq, həmçinin termin yaradıcılığına cəmiyyətin müxtəlif təbəqələrini, o cümlədən xaricdə yaşayan soydaşlarımızı cəlb etməkdir".




## Azərbaycan dilinin gələcəyi əmin əllərdədir

Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Rəsmi yığıncaqlarda, məclislərdə ana dilimiz fəxarətlə, təntənə ilə səslənir. Azərbaycan ədəbi dilinin hərtərəfli inkişafı, elmin müxtəlif sahələri ilə bağlı ana dilində əsərlərin yazılması, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti və onun yürütdüyü dil siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə bağlıdır. Ana dili elə bir sərvətdir ki, onda hamının payı bərabərdir. Gəlin ana dilimizi sevək, öyrənək və gələcək nəsillərə ləyaqətlə çatdıraq. Heydər Əliyevin dediyi kimi, "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi etmisdir. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini - dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir".

Tarixi keçmişimizi özündə yaşadan ana dilimiz qorunur, yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

# 25 İLİN UĞUR SALNAMƏSİ

## İlham Əliyevin MOK-un prezidenti seçilməsi ilə Azərbaycan Olimpiya hərəkatının yeni yüksəliş mərhələsi başladı



**Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan bu gün həm də dünyada idman ölkəsi kimi tanınır. İdman sahəsində əldə edilən uğurlar, eləcə də Azərbaycanın mötəbər beynəlxalq yarışlara yüksək səviyyədə evsahibliyi etməsi bu nailiyyətləri şərtləndirən amillərdir.**

Ancaq etiraf etməliyik ki, müstəqilliyinin bərpasından sonra, ötən əsrin 90-cı illərində Azərbaycanda mövcud olan böhran bir çox sahələrin, o cümlədən idmanın inkişafına da mənfi təsir etmiş, idman dövlət qayğısından kənarda qalmışdı. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi ilə idman sahəsi də ölkənin inkişaf istiqamətlərindən birinə çevrildi. Ümummilli Lider yaxşı bilirdi ki, ölkənin parlaq gələcəyinin təməli gənclər və idman siyasətinin yeridilməsini tələb edir. Buna görə də dahi liderin fərmanına əsasən, 1994-cü ildə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradıldı. Bu, Azərbaycanın müasir idman tarixinin başlanğıcı oldu. Bunun ardınca 1995-ci ildə Prezident yanında İdman Fondu yaradıldı.

Prezidentin imzaladığı fərmanda qeyd edilirdi ki, bu fondun yaradılmasında məqsəd ölkə əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahəyə ümumxalq yardımının təşkil olunması, gənclərin idmana marağını artırmaq, Azərbaycan idmanının beynəlxalq miqyasa çıxması üçün real zəmin yaratmaqdır. Bu məqsədlə Prezident fondundan müstəsna hal kimi İdman Fonduna 2 milyard manat məbləğində vəsait ayrıldı. Bütün bunlar Ulu Öndərin idmana nə qədər böyük önəm verdiyinin göstəricisi idi.

İlham Əliyevin Prezident seçilməsindən sonra isə Azərbaycanda idman sahəsi özünün intibah dövrünə qədəm qoydu. Bu gün dünyanın mötəbər idman yarışlarında, Olimpiya oyunlarında Azərbaycan bayrağı yüksək zirvələrdə dalğalanır. Həmçinin paytaxt Bakının ən nüfuzlu beynəlxalq yarışların təşkilinə, yüksəksəviyyəli evsahibliyinə görə Azərbaycan böyük nüfuz qazanıb. "Bakı-2015" I Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, XV Avropa Gənclər Olimpiya Festivalının, futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 qarşılaşmasının və müxtəlif idman növləri üzrə təşkil olunan dünya və qitə birinciliklərinin Azərbaycana həvalə edilməsi son illər ölkəmizdə bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.






















### İdmanda yüksəliş mərhələsi

Bu il Azərbaycanda Milli Olimpiya Komitəsinin (MOK) yaradılmasının 30 illiyi keçiriləcək. Prezident İlham Əliyev MOK-un 30 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sənəddə qeyd olunur ki, Milli Olimpiya Komitəsi təsis olunduğu vaxtdan ölkədə idmanın dinamik inkişafı, Olimpiya ideallarının bərqərar olması və təşviqi üçün məqsədyönlü, ardıcıl fəaliyyət göstərib. Ötən müddət ərzində Azərbaycanın idman infrastrukturunun yenilənərək ən müasir standartlara cavab verən səviyyəyə gətirilməsində, idmanın kütləviliyinin artırılmasında və sağlam həyat tərzinin təbliğində Milli Olimpiya Komitəsinin mühüm xidmətləri olmuşdur.

Xatırladaq ki, sovet dövründə idmançılarımız yalnız SSRİ-nin adı və bayrağı altında beynəlxalq idman yarışlarına qatılırdılar. Ölkəsinin bayrağını qaldırmaq, himnini səsləndirmək o dövrün qalib Azərbaycan idmançısına nəsib olmurdu. Müstəqillik dövründə isə vəziyyət tamam başqadır. Doğrudur, ötən əsrin 90-cı illərinin əvvəllərində, xaos və anarxiya dövründə idmançılarımız hətta iştirak hüququ qazandıqları yarışlara belə vəsait çatışmazlığından qatıla bilmirdilər. 1992-1997-ci illərdə MOK-un fəaliyyəti heç də istənilən səviyyədə deyildi və qənaətbəxş sayıla bilməzdi. Çünki bu sahədə fəaliyyət planı lazımi səviyyədə qurulmamışdı.

Əslində, həmin dövrdə MOK qarşıda duran ümdə vəzifələrin həyata keçirilməsi üçün kənarda qalmamalı, aparıcı rol oynamalı idi. Təəssüf ki, MOK belə bir mövqe tuta bilmədi, ümumən, qurumun fəaliyyətinin ilk beşilliyi dövründə Milli Olimpiya Hərəkatında durğunluq hökm sürdü. Belə bir vəziyyət isə ölkə rəhbərliyini, idman ictimaiyyətini qane etmirdi. Çünki Olimpiya oyunlarında yüksək nəticələr göstərmək lazım idi.

MOK-un 1997-ci il iyulun 31-də keçirilmiş növbəti Baş Məclisində bütün məsələlərin müzakirəsi zamanı bəlli oldu ki, istedadlı idmançılarımızın, məşqçi və mütəxəssislərimizin bir qismi ölkədən gedib, idmançıların məşq və yarışlarda iştirakı, onların sosial vəziyyəti acınacaqlı haldadır. MOK-un nəinki beynəlxalq idman qurumları ilə, hətta ölkənin idman təşkilatları ilə belə əlaqəsi yox idi.

Bu vəziyyətlə barışmayan Baş Məclis MOK İcraiyyə Komitəsinin yeni tərkibini seçdi. Səsvermə nəticəsində həmin vaxt Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı olan İlham Əliyev MOK-un prezidenti seçildi.

Elə ilk günlər göstərdi ki, MOK çox düzgün və qətiyyətli addım atıb. Komitə ilk növbədə mövcud durumu düzgün qiymətləndirməklə idmanımızı dirçəltməyin yollarını dəqiq müəyyənləşdirib hərəkətə keçdi. Olimpiya hərəkatının real vəziyyəti öyrənildi, mövcud problemlər aşkara çıxarılaraq araşdırıldı.

İlham Əliyevin rəhbərliyi altında Milli Olimpiya Komitəsinin görməli olduğu işlər həddən artıq çox idi. Bunların sırasında beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsi olduqca vacib rol oynayırdı. Qarşıya çıxan bütün problemləri bacarıqla həll edən İlham Əliyev Olimpiya hərəkatının məqsəd və vəzifələrini, fəaliyyət sisteminin ardıcıl istiqamətlərini də müəyyənləşdirdi.

Beləliklə, İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız beynəlxalq Olimpiya hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə işlər görüldü.

### Maddi-texniki bazanın yaxşılaşdırılmasının əsası qoyuldu

MOK-un fəaliyyətində canlanma təkcə olimpizmin təbliği, idmançılarımızın olimpiadalarda iştirakını təmin etməklə bitmədi, həm də bu sahədə maddi-texniki bazanın gücləndirilməsi sahəsini əhatə etdi. Bununla da ölkədə idmanın sürətli inkişafını təmin etmək və onun perspektivlərini genişləndirmək məqsədilə mövcud maddi-texniki bazanın vəziyyətində dönüşün əsası qoyuldu. MOK 1999-cu ildən öz obyektlərinin tikintisinə başladı və artıq 2000-ci ilin oktyabrında Bakıda ilk Olimpiya kompleksinin açılış mərasimi oldu. Bu sahədə paytaxtdan başlayan quruculuq bölgələrə doğru istiqamətləndi. Bölgələrdə Olimpiya idman komplekslərinin tikilib istifadəyə verilməsi idman hərəkatının tərəqqisi üçün çox önəmli rol oynadı.

Bütövlükdə 2000-ci ildən indiyədək ölkədə 50-yə yaxın Olimpiya İdman Kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub. Paytaxtımızda ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilən komplekslər əsaslı təmir olunub və eyni zamanda son illərdə bir neçə böyük stadion, idman qurğusu inşa edilib. Əlbəttə, təxminən 70 min tamaşaçı tutumuna malik olan Olimpiya stadionunu xüsusi qeyd etmək lazımdır. Bundan əlavə, Milli Gimnastika Arenası, Su İdman Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi üçün dövlət büdcəsindən böyük vəsait ayrılıb. Bunlarla yanaşı, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. İndi, demək olar ki, respublikamızın bütün bölgələrində Olimpiya kompleksləri fəaliyyət göstərir. Azərbaycanın ucqar rayonlarında müxtəlif idman növləri ilə məşğul olmaq üçün mövcud şərait var.

Ümumilikdə son illər ərzində həm bölgələrdə, həm də Bakıda idmanın inkişafına xüsusi diqqət yetirilməsi öz bəhrəsini verməkdədir.

### Olimpiadalarda medal yağışı

İdmana və gənclərə göstərilən qayğı çox keçmədi ki, öz bəhrəsini verdi. Atletlərimiz çıxış etdikləri son 7 olimpiadada möhtəşəm tarixi zəfərlərə imza atdılar. Onları bir daha xatırladırıq. 1996-cı ildə ABŞ-da keçirilən Atlanta Olimpiadasında 23 idmançı ilə təmsil olunan Azərbaycan 1 gümüş medalla 61-ci yeri tutmuşdu. İdmançılarımız arasında yeganə olaraq gümüş medalı 52 kq çəki dərəcəsində yarışan sərbəst güləşçimiz Namiq Abdullayev qazanmışdı.

2000-ci ildə Sidneydə 31 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl və 1 bürünc medalla dünyada 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu. Komandamıza ilk medalı qadınlar arasında stend atıcılığı yarışlarında Zemfira Meftahəddinova qazandırdı. Ölkəmizə ikinci qızıl medalı Atlanta oyunlarının gümüş mükafatçısı, güləşçi Namiq Abdullayev gətirdi. Boksçu Vüqar Ələkbərov bürünc medala sahib oldu.

21-ci minilliyin ilk Olimpiya Oyunlarında - "Afina-2004"də 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı. Yunan-Roma güləşi üzrə 66 kq çəki dərəcəsində 22 yaşlı Fərid Mansurov fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl, atıcılıq üzrə yarışlarda kiçikçaplı tapançadan 25 metr məsafəyə atəş açmada İradə Aşumova və stend atıcılığı üzrə təmsilçimiz, "Sidney-2000" Olimpiadasının qızıl mükafatçısı Zemfira Meftahəddinova Azərbaycan yığmasının hesabına iki bürünc medal yazdırdılar. Afinada yarımfinala yüksələn ilk Azərbaycan boksçusu Ağası Məmmədovun çəki problemi onu bürünc medalla kifayətlənməyə məcbur etdi. Ölkəmizin aktivinə yazılan 4 bürünc medaldan biri isə digər boksçumuz Fuad Aslanovun payına düşdü.

2008-ci ildə Pekində təşkil edilən Olimpiadada Azərbaycan 12 idman növündə 44 atletlə təmsil olundu. Komandamız Olimpiya oyunlarında ilk dəfə olaraq hər üç əyarda medallar qazandı.

Ölkəmizə Olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) gətirdi. Gümüş medalları Yunan-Roma güləşində Rövşən Bayramovla (55 kq) Vitali Rəhimov (60 kq) qazandılar. Sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq), qadın güləşində Mariya Stadnik (48 kq), boksda Şahin İmranov (57 kq) və cüdoda Mövlud Mirəliyev (100 kq) bürünc medala layiq görüldülər.

Beləliklə, Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan yığması 7 medalla (1 qızıl, 2 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

2012-ci ildə London Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc) qazandılar. Bununla da 204 ölkə arasında 30-cu yerdə qərar tutan ölkəmiz medalların ümumi sayına görə 25-ci oldu. İki qızıl, iki gümüş və altı bürünc əldə edən idmançılarımız bu göstərici ilə Avropa ölkələri arasında 15-ci, MDB-də isə 5-ci yeri tutdular. Londonda Toğrul Əsgərov və Şərif Şərifov qızıl, Rövşən Bayramov və Mariya Stadnik gümüş medalların sahibi oldular. Digər üç güləşçimiz Emin Əhmədov, Yuliya Ratkeviç və Xetaq Qazyumov isə mübarizələrini bürünc medalla başa vurdular. Digər üç bürünc medalı isə ağırlıqqaldıran Valentin Xristov və boksçularımız Teymur Məmmədovla Məhəmmədrəsul Məcidov qazandılar.

2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən XXXI Yay Olimpiya Oyunlarına Azərbaycan 56 idmançı ilə qatıldı. İlk dəfə rekord sayda - 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanıldı. Dünyanın 207 ölkəsindən 11 mindən çox idmançının iştirak etdiyi turnirə respublikamız 56 idmançı ilə qatılmışdı. Azərbaycan medal sayına görə 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq İslam, türk və Qafqaz ölkələri arasında lider oldu.

Pəhləvanlarımız bu dəfə də 9 medal qazandılar. Güləş yığmamızın aktivinə 3 gümüş medalı pəhləvanlar (Mariya Stadnik, Toğrul Əsgərov və Xetaq Qazyumov) əlavə etdilər. Digər 6 güləşçimiz - Cəbrayıl Həsənov, Rəsul Çunayev, Nataliya Sinişin, Sabah Şəriəti, Şərif Şərifov və Hacı Əliyev isə çıxışlarını bürünc medalla başa vurdular. Cüdoçulardan Rüstəm Orucov və Elmar Qasımov 4 illiyin zirvə yarışını gümüş medalla başa vurdular.

Tarixində ilk dəfə Olimpiya oyunlarında mükafat qazanan taekvondo üzrə Azərbaycan millisi "Rio-2016"da ən yaxşılardan olub. Braziliyaya 4 idmançı ilə yollanan yığmamız okeanın o tayında 3 medal əldə edib. Radik İsayev Azərbaycanın yeganə qızıl medalının sahibi olub. Milad Beiqi Harçeqani və Patimat Abakarova bürünc medal qazandıqlarına sevindilər. Boksçulardan Sotomayor Lorenzo gümüş, Kamran Şahsuvarlı bürünc medala sahib oldular. Ölkəmizin hesabına daha bir gümüş medalı avarçəkmə yarışlarında Valentin Demyanenko, bürüncü isə İnna Osipenko-Rodomskaya əlavə etdi.

Pandemiya səbəbindən bir il təxirə salınan "Tokio-2020" Olimpiadasına 44 idmançı ilə qatılan Azərbaycan komandası turniri 3 gümüş və 4 bürünc medalla başa vurub. Gümüş medalların 2-si karate, 1-i güləş, bürünc mükafatlardan isə 2-si güləş, 1-i cüdo, 1-i boks yarışlarında qazanılıb. Karateçilərimizdən Rafael Ağayev (kumite, 75 kq) və İrina Zaretska (kumite, +61 kq) təkcə finalda uduzaraq gümüş medallara sahib olublar. Digər gümüş medalın sahibi sərbəst güləşçi Hacı Əliyevdir. Yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (77 kq) və qadın güləşçimiz Mariya Stadnik (50 kq) Olimpiadanı bürünc medallarla başa vurdular. Ölkəmizin aktivinə digər bürünc medalları cüdoçu İrina Kindzerska (+78 kq) və boksçu Alfonso Domingez (81 kq) yazdırdılar.

Beləliklə, Azərbaycan idmançıları qazandıqları nəticələri təkrar etmək, tutduqları mövqeyi qoruyub saxlamaq və yaxşılaşdırmaq uğrunda gərgin mübarizə aparırlar. Müxtəlif irimiqyaslı yarışlarda idmançılarımızın qələbələri və yeni gənc idmançılar nəslinin aşkar olunan potensial imkanları ölkəmizin qarşıdakı nüfuzlu yarışlarda da yüksək nəticələr göstərərək, əvvəlki mövqelərini daha da yaxşılaşdıracağına inam yaradır.

Bu gün Azərbaycan idmanı tarixinin çox şərəfli və tərəqqi dövrünü yaşamaqdadır. Bütün bu nailiyyətlər Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən bu sahəyə göstərilən xüsusi diqqət və qayğının bəhrəsidir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Bəzi "media vasitələri" söz azadlığından sui-istifadə edirlər

## Onların peşəkar jurnalistikaya heç bir aidiyyəti və bağlılığı yoxdur

Söz və fikir azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün münbit şəratin yaradılması demokratik inkişafın əsas meyarlarından biridir. Bu mənada ölkəmizdə demokratikləşmə istiqamətində həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsi kimi söz azadlığı tam təmin olunub, medianın inkişafı üçün gərəkən bütün addımlar atılıb.



Respublikamızda cəmiyyət həyatının bütün sahələrini əhatə edən islahatlar medianı da əhatə edib. Bir müddət əvvəl "Media haqqında" yeni qanunun qəbul olunması bunu təsdiq edir. Yeni qanunun qəbulu göstərdi ki, Azərbaycan dövləti qlobal inkişafın yaratdığı yeni imkanlardan yerli medianın daha çox bəhrələnməsində, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılmasında maraqlıdır.

Görünən odur ki, ölkəmizdə media azadlığı tam təmin edilmişdir. Dünyanın çox az sayda ölkəsində media vasitəsinin yaradılması ilə bağlı Azərbaycanda olduğu kimi, sadə qaydalara rast gəlmək olar. İstənilən media orqanı və ya jurnalist sərbəst informasiya toplamaq, onu təhlil etmək və yaymaq imkanına malikdir. Sırf peşə etikasını və qanunları gözləməklə həyata keçirilən bu fəaliyyətə görə hələ indiyədək bir jurnalist və KİV hər hansı çətinliklə üzləşməyib.

Əlbəttə, onu da unutmaq lazım deyil ki, söz azadlığı geniş anlayışdır. Bu baxımdan yaradılan imkanlardan yararlanan kütləvi-informasiya vasitələrinin üzərinə böyük məsuliyyət düşür. Azərbaycan mediası keyfiyyətcə yeni mərhələdə sağlam jurnalistika dəyərləri əsasında fəaliyyət göstərməli, cəmiyyət qarşısında və ölkəmizin informasiya təhlükəsizliyinin təmin edilməsində məsuliyyətini unutmamalıdır. Mətbuatda dövlətçilik maraqlarının qorunması məsələsi bütün maraqların fövqündə dayanmalıdır.

Digər tərəfdən, söz azadlığı heç bir halda insanların şərəf və ləyaqətini təhqir etmək, böhtan atmaq, qanunlara zidd fəaliyyətə təşviq etmək kimi başa düşülməməlidir. KİV-də tənqid olmalıdır və bu normaldır. Lakin tənqid adı altında qara yaxmaq, təhqir, şantaj etmək isə yolverilməzdir.

Təəssüflə qeyd edilməlidir ki, söz azadlığını tamamilə tərsinə və təhrif olunmuş şəkildə qəbul edənlərə də rast gəlirik. Ölkəmizdə söz azadlığı ilə bağlı yaradılan şəraitdən sui-istifadə etmək istəyən, amma peşəkar və sağlam əqidəli KİV-ə heç bir aidiyyəti olmayan bəzi "media vasitələri" öz fəaliyyətlərini ayrı-ayrı insanları şantaj etməklə, onlara hədə-qorxu gəlməklə pul tələb etmək üzərində qururlar. Bu, artıq cinayət məsuliyyəti yaradan bir fəaliyyətdir, reketçilikdir. Bunun isə peşəkar jurnalistika fəaliyyəti və mətbuat azadlığı ilə heç bir bağlılığı yoxdur.

Azərbaycan dövləti, hüquq-mühafizə orqanları bu cür neqativ hallarla bağlı ciddi mübarizə aparır, belə əməllərə yol verənlər aşkarlanıb məsuliyyətə cəlb olunurlar. Bununla belə, reket jurnalistlər tərəfindən şantaj olunan, təhqir və böhtana məruz qalan insanlar da susmamalı, öz haqlarını qorumaq üçün məhkəmələrə üz tutmalıdırlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Jurnalistin sosial məsuliyyət anlayışı olmalıdır

## İntiharla bağlı mövzular həssas xəbərlər kateqoriyasına aid olduğundan buna ehtiyatla yanaşılmalıdır

Son zamanlar intihar xəbərləri sosial şəbəkələrin əsas mövzusuna çevrilib. Bu, demək olar ki, sosial şəbəkələrdə ən çox rast gəldiyimiz mövzulardan biridir. "Universitetə girə bilməyən gənc qız çıxış yolunu intiharda gördü", "İşini itirən gənc oğlan özünü asaraq intihar etdi", "Ailəsinə baxa bilməyən ata özünü yandırdı", "10 yaşında balaca qız serialda gördüyü intiharı təkrarladı".

Bu kimi xəbərləri eşitmədiyimiz gün yoxdur. Sosial şəbəkələr bu cür halları təbliğ edir, sanki intiharetmə üsullarından dərs keçir. Bu isə psixoloji sarsıntı keçirənlərə və dərdlərinə çarə axtaranlara daha bir zərbə vurur. İntihar hadisələri də daxil olmaqla müxtəlif mənfi hərəkətlərin, eybəcərliklərin, əxlaqsızlıqların, ailədaxili münaqişələrin ön plana çıxarılması cəmiyyətdə psixoloji gərginlik yaradır və bu, düşüncələrə neqativ təsir göstərir.

### Unutmayaq ki, oxucular arasında uşaqlar da var

İnsanların mediadan məlumat almaq hüququ var. Amma belə xəbərlərin ictimailəşməsi və izləyici kütləsinə çatdırılması əks-effekt də verə bilər. Bəzən bu, insanların beyninə çıxış yolu, onu incidənlərdən qisas almaq üsulu, bəzən də "qəhrəmanca" hərəkət kimi də yeridilir.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Vüqar Zifəroğlu deyir ki, bu mövzuların işlənilməsi ilə bağlı jurnalistikada xüsusi davranış prinsipləri var: "İntiharla bağlı mövzular həssas xəbərlər kateqoriyasına aiddir. Beynəlxalq təşkilatların peşə etikası ilə bağlı tövsiyə xarakterli sənədlərində prinsiplər qeyd edilib. Əlbəttə ki, xəbər varsa oxucuya təqdim edilir. Amma bu kimi xəbərlərdə jurnalist xüsusilə diqqətli olmalı və həssaslıq nümayiş etdirməlidir. Təqdim etdiyimiz xəbərlər müxtəlif əhvalda olan insanların evinə girir və onlar bu xəbərlərlə tanış olurlar. Özümüz də bilmədən insanların durumunda hansısa mənfi iz buraxa bilərik. Buna görə də həssas davranaraq prinsiplərə ciddi şəkildə əməl etməklə belə xəbərləri təqdim etmək lazımdır".

Vüqar Zifəroğlu intihar xəbərlərinin uşaqların psixologiyasına mənfi təsir etdiyini bildirdi: "Oxucularımız arasında uşaqlar da var. Bunun özü də həssas məsələdir. Azyaşlılarda belə xəbərlər ciddi şəkildə dərin iz buraxa bilər. Bu baxımdan meyarları nəzərə almaq lazımdır. Unutmaq olmaz ki, jurnalistika cəmiyyətə təsir etmək gücünə malik sosial institutdur. Məhz bundan irəli gələrək jurnalistin sosial məsuliyyət anlayışı var və xəbərlərin hazırlanmasında daha qabarıq şəkildə özünü göstərmiş olur".

### Media intihar xəbərlərini dramatikləşdirməməlidir

Çox təəssüf ki, bir sıra media vasitələri və sosial şəbəkələrdə olan səhifələr özlərinə izləyici toplamaq üçün intihar hadisələrini ajiotajla və özünüreklam formasında yayımlayaraq insanlarda maraq oyatmağa çalışırlar.

Psixiatr Fuad Bəşirov deyir ki, mediada bu mövzuda xəbərlərin verilməsi və hadisənin təsviri sosial münasibətlərə və intihar qavrayışına ciddi təsir göstərir: "Bu tip məsələlərin müzakirəsində son dərəcə diqqətli olmaq lazımdır. Media intihar xəbərlərini dramatikləşdirməməli və sosial şəbəkələrdə xəbər paylaşarkən xüsusilə vurğulanaraq deyilməməlidir. Xəbərdə "çıxış yolunu intiharda gördü" kimi sözlərdən istifadə olunmaması məsləhətdir. Sanki bunu "tək çıxış yolu" kimi insanlara təqdim etmiş olurlar. Digər tərəfdən, eyni mövzuda olan ölüm xəbəri təkrar olaraq yayımlanmamalıdır. Bu baxımdan yerli səhiyyə orqanlarının media ilə birgə çalışması lazımdır".

Gündəlik müşahidələr göstərir ki, internet və sosial şəbəkə istifadəçiləri üçün belə xəbərlər daha cəlbedici olur. Başqa sözlə desək, bunu mütəmadi və rezonansla yayımlayan şəxslər bilməlidirlər ki, uşaqlar və gənclər həyatı sosial mediadan öyrənirlər. Onlar məşhur insanların mesajlarına daha çox əhəmiyyət verirlər.

Psixiatr xüsusilə vurğuladı ki, mətbuat sensasiyalı xəbərlərdən, hətta intiharın problemlərin həlli yolu olduğunu təqdim etməkdən çəkinməlidir: "Bunun əvəzində intiharın qarşısı alına bilən üsulların olduğunu vurğulamaq və yardım resursları kimi faydalı məlumatlar paylaşılmalıdır. Jurnalistlər xəbərləri paylaşarkən intihar edən şəxsin yaxınlarının ağrılarını da nəzərə almalıdır".

İntiharın hər zaman ölümlə nəticələnməyəcəyini də xatırlatmaq bəzən faydalı ola bilər. Ölmək üçün cəhd edib, amma ömürlük şikəst olub, əlil arabalarında gəzənləri və sevdiyi insanların onun acınacaqlı vəziyyətinə çox üzüləcəyini yada salmaq lazımdır. Çıxış yolu kimi dövlətin sığınacaqlarından faydalanma imkanlarının olduğunu qeyd etmək, yaşlılar üçün qocalar evi, evsizlər üçün müvəqqəti sığınacaqlar və ya müxtəlif xeyiriyyə cəmiyyətlərindən yardım istəmək olar. İnanclı insanlara isə intiharın günah olduğunu xatırladıb, ölümün yenə də ona rahatlıq gətirməyəcəyini demək çox zaman bu şəxsləri belə düşüncədən uzaqlaşdırır.

Media kriminal xəbərlərin təbliğatçısına çevrilməməli, xəbərçi funksiyasını düzgün yerinə yetirməlidir. İmkan düşdükcə cinayət işini incələyən ekspert rəylərinə xüsusi yer ayırmalıdır. Bir sözlə, cinayət işləri cəmiyyət üçün adiləşdirilməməlidir.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# Prezidentin son fərmanı elm və ali təhsilin inteqrasiyasına yeni üfüqlər açır

## Bu sahədə idarəetmənin təkmilləşdirilməsi müasir səviyyədə inkişafa töhfə verəcək

Hər bir xalqın gələcəyinin müəyyənləşməsində təhsilin və elmin rolu mühümdür. İndi elə bir dövrdə yaşayırıq ki, dünyada yeni prioritetlər, yeni standartlar formalaşmaqdadır. Elm daha sürətlə inkişaf edir.

Bu baxımdan ölkəmizdə təhsilin və elmin inkişafı məqsədilə köklü islahatların həyata keçirilməsi olduqca vacibdir. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2022-ci il 28 iyul tarixli Fərmanda elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə mühüm struktur dəyişiklikləri əksini tapıb. Elm və təhsilin müasir tələblər səviyyəsində inkişafı baxımından mühüm əhəmiyyətə malik olan fərmanda qarşıya yeni vəzifələr qoyulub.

İlk addımlar atılıb. Dövlət başçısının "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanına əsasən, Təhsil Nazirliyinin adı dəyişdirilərək Elm və Təhsil Nazirliyi adlandırılıb. Fərmana əsasən, elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Elm və Təhsil Nazirliyinə həvalə olunub. Nazirliyin yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi yaradılıb. Eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, eləcə də digər qurumlarının siyahısı təsdiqlənib.

Yeni fərmana uyğun olaraq, AMEA-ya qurumun yeni Nizamnaməsini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

AMEA-nın prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanından irəli gələn vəzifələrin icrası üçün müəyyən tədbirləri müəyyənləşdirdiklərini nəzərə çatdırıb.

O, fərmanın ölkəmizdə elm və təhsilin daha sıx inteqrasiyası, elmdə və təhsildə gedən proseslərin birgə aparılması cəhətdən mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Akademik uzun illər ərzində elm və təhsilin inkişafında belə bir inteqrasiyanın aparılması üçün müəyyən hazırlıq işlərinin həyata keçirildiyini vurğulayıb: "Təhsil sistemində bakalavriat və magistratura pillələri ayrılmışdı. Bildiyimiz kimi, magistratura elmi dərəcə verilən bir pillədir. Əgər universitetlərdə elmi dərəcə verilən pillə varsa, magistr hazırlanırsa, mütləq onlar elmi tədqiqatla əlaqəli olmalıdır". Akademikin fikrincə, bunların vəhdət şəkildə idarə edilməsi zəruridir: "AMEA-da magistratura təhsilinin olmasına baxmayaraq, tədqiqatların birgə aparılması və koordinasiya olunması, mövzuların seçilməsi, prioritet istiqamətlərin müəyyənləşməsi və onların respublikamızın bu günü, sabahı, gələcəyi üçün istiqamətləndirilməsi, bir mərkəzdən idarə olunması məsələləri xüsusi əhəmiyyət kəsb edirdi. Fərmanın əhəmiyyəti təkcə bu gün bizim verdiyimiz qiymətlə bitmir, gələcəkdə onun qiyməti veriləcək və daha da qiymətləndiriləcək. Çünki fərmanda elə mühüm məsələlər qarşıya qoyulub ki, bunların həllini bir neçə müsahibədə və yazılarda göstərmək çətindir. Artıq elmi-tədqiqat institutlarımız öz fəaliyyətlərində təhsilin inteqrasiyasını bilavasitə görəcəklər. Onsuz da bizim institutlarımızın əməkdaşları təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olurlar. Ancaq bu pedaqoji fəaliyyətin onların tabe olduqları və yeni yaradılan Elm və Təhsil Nazirliyi və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi ilə bilavasitə aparılması onun səmərəliliyinin daha da artırılmasına xidmət edəcəkdir".

Akademik onu da bildirib ki, AMEA-nın elmi ictimaiyyəti bu fərmanı çoxdan gözləyirdi: "Azərbaycanda zamanın tələbinə, ölkəmizin dünyada tutduğu mövqeyə uyğun olaraq yenilənmə getməli idi. Yenilənmənin bu formada getməsi AMEA-nın ictimaiyyətini çox sevindirdi. Milli Elmlər Akademiyası öz fəaliyyətini davam etdirəcək və əvvəlki kimi akademiyaya olan diqqət daha da artacaq. Akademiya da öz qarşısına qoyulan vəzifələrin icrasında dövlətə söykənərək, onun qayğısını görərək daha da fəal iştirak edəcək. Respublikamız üçün elmi kadrların hazırlanmasında, elm və təhsilin inteqrasiyasında daha fəal iştirak edəcək. Yəqin ki, biz bunun nəticələrini bir neçə ildən sonra daha dolğun şəkildə görəcəyik".

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli artıq xeyli müddətdir ki, Azərbaycan cəmiyyətinin ən müxtəlif istiqamətlərində, xüsusilə sosial şəbəkələrdə Azərbaycan elmi, akademiya haqqında müxtəlif fikirlərin səslənməkdə olduğunu diqqətə çatdırıb: "Prezidentin imzaladığı fərman AMEA-nın qorunub saxlanacağına təminat verir və bu istiqamətdə sorğulara, müzakirələrə son qoymuş olur. Eyni zamanda akademiyanın hansı modeldə inkişaf edəcəyi də Azərbaycan cəmiyyətini düşündürürdü". İsa Həbibbəyli əlavə edib ki, Akademiyanın Rəyasət Heyətinin üzvləri də dünya təcrübəsini öyrənmək istiqamətində iş aparırlar: "Hesab edirəm ki, ölkəmizin Prezidenti cənab İlham Əliyevin fərmanı ilə müəyyən olunmmuş model müstəqillik dövründə, Azərbaycan cəmiyyətinin indiki inkişaf mərhələsində həm Elm və Təhsil Nazirliyinin inkişaf etdirilməsi, həm də AMEA-nın qorunub saxlanılması, yeni fəaliyyət istiqamətlərinin müəyyənləşdiriiməsi baxımından müəyyən edilmiş modeldir. Bu, həm ölkəmizdə milli-mənəvi dəyərlərin, dövlətçilik atributlarının, ideologiyasının, vətənpərvərlik tərbiyəsinin fundamental elmi əsaslarla öyrənilib işlənməsinə və istiqamətləndirilməsinə öz töhfəsini verəcək. Eyni zamanda elm və təhsilin inteqrasiyası baxımından tamamilə yeni üfüqlər açacaq".

Fərmanda AMEA-nın statusunun saxlanılması, onun tabeliyində bir sıra institutların fəaliyyət göstərməsi də əksini tapıb. İsa Həbibbəyli deyib ki, Milli Elmlər Akademiyası elmin əlaqələndirilməsi şurasını, problem şuralarının idarə olunmasını bundan sonra da davam etdirəcək. Akademiyada həqiqi və müxbir üzvlərin seçkilərinin keçirilməsi səlahiyyəti də AMEA-ya daxildir.

O, qeyd edib ki, Prezident İlham Əliyevin fərmanı o cümlədən Elm və Təhsil Nazirliyinin yaradılması elmin və təhsilin inteqrasiyası baxımından atılmış islahatyönümlü addımdır və bu, çox mühümdür: "Bu həm də dünya təcrübəsinə uyğundur. Belə ki, dünyanın bir çox ölkələrində elm və təhsil vahid mərkəzdən Elm və Təhsil Nazirliyi formatında idarə olunur və səmərə verir. Eyni zamanda bizim ölkəmizin reallığı da elm və təhsilin qarşılıqlı surətdə əlaqələndirilməsinə, elmin və təhsilin inkişaf etdirilməsinə töhfələr verəcəyinə inam yaradır. Buna görə də AMEA-nın kollektivi ölkəmizdə Elm və Təhsil Nazirliyinin yaradılmasını, idarəetmənin elm və təhsil sahəsində təkmilləşdirilməsini elmin və təhsilin inkişafı baxımından zəruri addım hesab edir. Buna görə də biz Prezident İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk".

Neft və Qaz İnstitutunun baş direktoru akademik Fəxrəddin Qədirov Prezident İlham Əliyevin imzaladığı bu fərmanın Azərbaycan Milli Elmlər Akademiyası haqqında tam vaxtında verilmiş bir qərar olduğunu vurğulayıb. O, akademiyanın daha çevik fəaliyyət göstərməsi üçün dəyişikliklərə ehtiyac olduğunu qeyd edib. Bildirib ki, akademiyanın bəzi institutlarının yeni yaradılan Elm və Təhsil Nazirliyinin tabeliyinə verilməsi mükəmməl qərardır.

Akademik Fəxrəddin Qədirov deyib: "İnanıram ki, nazirliyin tərkibində yaradılan Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi elm və təhsilin inteqrasiyasını təşkil edəcək. Fikrimcə, nazirliyin tabeliyinə keçən institutlarda da əməkhaqqı universitetlər səviyyəsində olacaq. Bu da gənc alimlərin elmə olan marağını stimullaşdıracaq. Son dövrlərdə akademiyanın gənc alimləri sırf maliyyə məsələləri ilə bağlı olaraq işləmək üçün şirkətlərə gedirdilər. Ümid edirəm ki, atılan addım bu məsələlərin aradan qaldırılmasına da təsir edəcək. Bununla yanaşı, akademiyada ictimai səviyyədə bölmələrin fəaliyyət göstərməsinin də tərəfdarıyam. İsrailin, Qazaxıstanın və dünyanın bir çox dövlətlərinin universitetlərində bu bölmələr ictimai səviyyədə fəaliyyət göstərirlər və bundan faydalar əldə edilir. Çünki bu, elm sahəsində çalışan insanların birləşdiyi bir yer ola bilər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Mingəçevirdə QHT-lərin birinci İnkişaf və Mübadilə Proqramının açılış mərasimi keçirilib

Mingəçevir şəhərində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil edilən QHT-lərin 1-ci İnkişaf və Mübadilə Proqramının açılış mərasimi keçirilib.

QHT Agentliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasimdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Prezident Administrasiyasının məsul əməkdaşları Əli Pənahov, Samir Məmmədov, qeyri-hökumət təşkilatlarını təmsil edən, təlim üçün müsabiqədən keçən iştirakçılar və media nümayəndələri iştirak ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bildirib ki, Agentlik tərəfindən həyata keçirilən QHT-lərin 1-ci İnkişaf və Mübadilə Proqramı davamlı olaraq təşkil ediləcək. Bu təlimlərin QHT-lərin layihələrin yazılması və idarə edilməsi sahəsində bacarıqlarının daha da təkmilləşdirilməsinə töhfə verəcəyini vurğulayan A.Əliyeva qeyd edib ki, proqrama qeydiyyatdan 259 qeyri-hökumət təşkilatı keçib və müsahibə zamanı onlardan 110 nəfər təlimlərdə iştirak hüququ qazanıb. İştirak edə bilməyən təşkilatlar üçün təlimlərin davam etdirilməsi nəzərdə tutulub.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev çıxış edərək təşkil olunan proqramın əhəmiyyətini vurğulayaraq deyib: "Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin gücləndirilməsi, davamlılığının təmin edilməsi, təşəbbüskarlıqlarının artırılması, xarici tərəfdaşlar ilə rəqabətə girmələri üçün mütəmadi əsasda bilik və bacarıqlarının artırılması istiqamətində əməli işlərə ciddi ehtiyac var. Əvvəlki illərdə bu istiqamətdə müəyyən fəaliyyətlər həyata keçirilsə də, onlar sistemli xarakter almayıb, ehtiyaclara uyğun təşkil edilməyib. Yalnız "QHT Məktəbi" proqramı davamlılığını təmin edə bilib.

Apardığımız müşahidələr göstərir ki, hər il xeyli sayda qeyri-hökumət təşkilatı yaranır. Lakin onların böyük əksəriyyəti zəruri təlimlər almadan bu işə başlayır, kor-koranə fəaliyyət göstərirlər. Biz bu halı onların təşkilati idarəçiliyində, layihə tərtibatlarında, yerli ehtiyacları öyrəndiklərində, layihələrin icra olunmasında və s. aydın görürük. Bəzən layihə təşəbbüsləri donor təşkilatlar tərəfindən müsbət qiymətləndirməyən QHT-lər günahı özlərində axtarmırlar. Sonradan məsələni araşdıranda məlum olur ki, QHT-nin təcrübəsizliyi və layihələrin keyfiyyətsiz yazılışı səbəbindən donor haqlı qərar qəbul edib".

O, diqqətə çatdırıb ki, bu gün QHT-lərin bilik və bacarıqlarının artırılması qarşıda duran vəzifələrdən biridir. QHT-lərin 1-ci İnkişaf və Mübadilə Proqramı qeyri-hökumət təşkilatları üçün gözəl fürsətdir və burada keçirilən təlimlərdən faydalanmaları onların fəaliyyəti üçün ciddi nəticələr verə bilər.

Açılış nitqlərindən sonra təlimlərə start verilib.

Təlimlərin birinci günündə iştirakçılara "Dataların yığılması və təhlili", "Logframe - Məntiqi çərçivənin hazırlanması və dizaynı" mövzularında təlimlər keçirilib. Təlimlər ADA Universitetinin Beynəlxalq və İctimai Münasibətlər İnstitutunun dekanı Anar Vəliyev, beynəlxalq ekspert Vüsal Behbudov tərəfindən aparılıb.

Təlim zamanı iştirakçılara mövzularla bağlı nəzəri biliklər verilib və onların mövzu ilə bağlı sualları cavablandırılıb.

# AÇG doqquzuncu platformasının yolunu gözləyir



## bp rəsmisi B.Aslanbəyli: "Azərbaycanda 30 ildir fəaliyyət göstəririk və ən azı növbəti üç onillik ərzində də burada olacağıq"

"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku doqquzuncu platformasının yolunu gözləyir. Bu qurğunun tikintisi iki obyektdə - Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) və Bibiheybət İstehsalat-Quraşdırma Sahəsində aparılır.

Artıq platformanın iki nəhəng qazma modulu təhlükəsiz şəkildə lazımi yüksəkliyə qaldırılaraq relslərlə sürüşdürmə üsulu ilə üst tikililər blokunun üzərinə yerləşdirilib.

"Azəri Mərkəzi Şərqi" (ACE) platforması eyniadlı layihə çərçivəsində həyata keçirilir. Xatırladaq ki, 2017-ci il sentyabrın 14-də AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş imzalanıb. Sazişə əsasən, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadılıb. Bu sənəd "Yeni əsrin müqaviləsi" adını alıb. ACE layihəsi məhz həmin müqavilənin əsasında gerçəkləşir.

Beləliklə, iki qazma modulu artıq platformanın üst tikililərinin üzərindədir. Bunlar çəkisi 2350 ton, uzunluğu 43, eni 20 və hündürlüyü 20 metr olan modullu qazmaya dəstək modulu (MQDM) və çəkisi 2400 ton, uzunluğu 32, eni 22, hündürlüyü 80 metr olan qazma avadanlığı dəstidir (QAD). Bu iki qazma modulu qaldırma və sürüşdürmə əməliyyatınadək ACE-nin üst tikililər blokundan kənarda, ayrıca inşa olunub. Modullar Bibiheybət İstehsalat-Quraşdırma Sahəsində tikilib.

ACE layihəsinin baş meneceri Nil Fillips deyib: "Bu, bp-nin Xəzərdə ilk dəfə icra etdiyi və dəqiqliklə planlaşdırılan mürəkkəb bir əməliyyat idi. Proses belə olub: əvvəlcə modulları üst tikililərin göyərtəsinin yanında olan əsas qaldırma yerinə aparmaq üçün onların altına özü hərəkət edən qoşqular yerləşdirilib. Bu qoşqularla modullar göyərtənin yanına aparılıb, sonra modulların altına əlavə polad kasetlər yerləşdirilməklə onlar lazım olan təxminən 27 metr hündürlüyə qaldırılıb. Bundan sonra hidravlik itələyici domkratlar vasitəsilə modullar göyərtənin üzərinə sürüşdürülüb və öz daimi mövqelərinə yerləşdirilib. Bu unikal əməliyyatı təhlükəsiz şəkildə və qrafiki qabaqlayaraq həyata keçirdiyimiz üçün çox qürurluyuq. Bu, bizə modulun inteqrasiyasından əvvəl istismar sınağına başlamaq imkanı yaradıb".

bp-nin Azərbaycan, Gürcüstan, Türkiyə regionu, həmçinin Rusiya, Misir və Oman üçün layihələr üzrə vitse-prezidenti Kahal Kelli sözügedən möhtəşəm əməliyyatı icra edənlərə təşəkkürünü bildirib: "İki qazma qurğusunun ACE-nin üst tikililər göyərtəsinə qaldırılması və uğurlu inteqrasiyası layihənin tam başa çatdırılması istiqamətində nail olunmuş əlamətdar hadisədir. Bu əməliyyatın uğurla yerinə yetirilməsi "Azfen", NOV, SOCAR-KBR və "Mammoet" daxil olmaqla ACE layihəsinin podratçıları ilə sıx əməkdaşlıqda aparılmış təxminən dördillik mühəndis-layihələndirmə və istehsal işlərinin nəticəsidir. Bu mühüm nailiyyətdə əməyi olan hər kəsə təşəkkür edirəm."

bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bu uğuru ACE-nin müvəffəqiyyətlə yekunlaşacağına zəmanət kimi dəyərləndirib: "AÇG yatağından hasilatın səmərəli şəkildə idarə olunması istiqamətində göstərdiyimiz səylərə dəstək olacaq AÇG-nin növbəti platformasının - ACE-nin istismara verilməsi üzrə işlər plana uyğun irəliləməkdədir. 2017-ci ildə biz AÇG üzrə sazişi əsrin ortalarınadək uzatdıq və Azərbaycanın uzunmüddətli enerji tərəfdaşı olaraq AÇG əməliyyatlarını təhlükəsiz, səmərəli və etibarlı şəkildə davam etdirmək öhdəliyinə sadiqik. Biz Azərbaycanda 30 ildir fəaliyyət göstəririk və ən azı növbəti üç onillik ərzində də burada olacağıq ki, bu ölkənin hökuməti, SOCAR və tərəfdaşlarımızla birgə işləyərək yeni sərmayələr, texnologiyalar və yeni birgə səylər vasitəsilə AÇG-nin uzunmüddətli istismar potensialını reallaşdıraq."

Hazırda ACE layihəsi üzrə işlər ümumilikdə 75 faiz tamamlanıb və ən yüksək həddə çatıb. Bu işlərə Bakı, Avropa və Birləşmiş Krallıqda 5 min insan cəlb olunub ki, onların da əksəriyyəti Azərbaycan vətəndaşlarıdır.

Xatırladaq ki, AÇG-də iştirak payları belədir: bp (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31 faiz), "Ekvinor" (7,27 faiz)," Ekson-Mobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGCVideş (2,31 faiz).

AÇG-dən növbəti illərdə çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin maddi imkanlarının genişlənməsinə daha bir təkan verəcək. Çünki AÇG potensialı böyük olan yataqlar blokudur. 2049-cu ilin sonunadək bu yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur. Beynəlxalq tərəfdaşlar ARDNF-yə (Azərbaycan Respublikası Dövlət Neft Fondu) 3,6 milyard dollar bonus ödəyəcəklər.

"Azəri Mərkəzi Şərqi" platformasının tikintisi üzrə bütün işlər yekunlaşdıqdan sonra qurğu tam şəkildə Xəzərdəki daimi yerində quraşdırılacaq və sınaqlardan keçiriləcək. ACE-nin ilk neftini nəzərdə tutulduğu vaxt, yəni 2023-cü ildə verəcəyi gözlənilir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Qeyri-neft sektorundan vergi daxilolmaları 38 faizdən çox artıb




Dövlət-biznes münasibətlərinin şəffaflaşdırılması, rəqabətqabiliyyətli iqtisadi sistemə adekvat vergi siyasətinin həyata keçirilməsi, vergi sistemində şəffaflığın, vergiödəyiciləri və vergi orqanları arasında qarşılıqlı etimadın gücləndirilməsi mühüm nəticələrin əldə olunmasına imkan verib.

Vergi daxilolmalarındakı dinamika da bunu deməyə əsas verir. Belə ki, cari ildə ötən ilin eyni dövrü ilə müqayisədə büdcəyə vergi mədaxili 49, o cümlədən qeyri-neft sektorundan vergi daxilolmaları keçən ilə nisbətən 38 faizdən çox artıb.

Həmçinin onlayn kassa aparatları quraşdırılmış vergiödəyicilərinin dövriyyələrinin 55 faiz artması ticarət sektorunun daxilolmalarının artım tempini sürətləndirən mühüm amillərdəndir. Cari ilin yanvar-iyun aylarında qeyri-neft sektorunun özəl bölməsindən vergi daxilolmalarının 35 faizdən çox artması da xüsusi qeyd edilməlidir.

Həmin dövrdə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların proqnozu 112, işsizlikdən sığorta haqları üzrə 118, icbari tibbi sığorta haqları üzrə isə 107 faiz icra edilib.

# Şəhid uşaqları üçün növbəti yay istirahət düşərgələri təşkil olunub



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən şəhid uşaqları üçün növbəti yay istirahət düşərgələri təşkil olunub.

Agentliyin sosial sifarişi əsasında "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən Qubada həyata keçiriləcək layihə ölkəmizin müxtəlif bölgələri üzrə 100-dək şəhid uşağını (valideynlərindən birinin müşayiət edəcəyi də nəzərə alınmaqla 140 nəfəri) əhatə edəcək.

Layihə iki mərhələdən ibarət olacaq. Hər mərhələdə uşaqlardan və valideynlərdən ibarət 70 nəfərin Qubaya 5 günlük yay istirahət düşərgəsinə göndərilməsi nəzərdə tutulub.

70 nəfərdən ibarət ilk qrup xüsusi avtobuslarla Qubaya yola salınıb. Avqustun 3-cən davam edəcək turda şəhid övladları Qubanın tarixi və gəzməli yerlərinə gedəcək, bir sıra əyləncəli interaktiv təlimlərdə öz bacarıqlarını sınayacaqlar.

Həmçinin onlar bu regionda yerləşən məşhur istirahət mərkəzlərində dincələcəklər. Bu müddət ərzində onlarla interaktiv oyunlar, su idmanı və istirahəti, eyni zamanda müxtəlif psixoloji seanslar təşkil ediləcək.

# İvanovka və Lahıcda genişzolaqlı rabitə xidmətlərinin təqdim edilməsinə başlanılıb

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aztelekom" MMC tərəfindən İsmayıllı rayonunun İvanovka kəndi və Lahıc qəsəbəsində GPON (Gigabit Passive Optical Network) texnologiyası ilə genişzolaqlı xidmətlərin təqdim edilməsinə başlanılıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, artıq GPON texnologiyasının tətbiq edilməsi üçün lazım olan OLT (Optical Line Terminal) avadanlıqları qurulub.

İvanovka kəndində xətt şəbəkəsinin tikintisi üçün 19 kilometrdən artıq fiber-optik kabel çəkilib, 461 ədəd dəmir dirəkdən istifadə edilib.

Görülən işlər, son nəsil avadanlıqların tətbiqi İvanovka kəndində 1200-dən çox ailənin bu şəbəkəyə qoşulması və keyfiyyətli xidmətlərlə təmin olunmasına imkan verir. Eyni zamanda texniki imkanlar gələcəkdə yeni abunəçilərin say artımı nəzərə alınmaqla qurulur. Hazırda İvanovka kəndində 139 abunəçi yeni xidmətdən yararlanır və gündəlik yeni qoşulmalar davam edir.

Bununla yanaşı, yaxın ərazidə yerləşən Balik kəndinin də 115 abunəçisinin telefon və internetə olan tələbatı təmin olunacaq.



Lahıc qəsəbəsində də GPON texnologiyasının tikintisini tətbiq etməklə bir OLT avadanlığı quraşdırılıb. Tikinti işləri tam başa çatdıqdan sonra ətraf 10 kəndin əhalisi də (Ərəgit, Əhən, Namazgah, Gəndov, Qaraqaya, Sərdahar, Həftəsiyab, Çandahar, Brovdal, Zarat) yeni xidmətlərdən istifadə etmək imkanı əldə edəcəkdir.

Hazırda Lahıc və Ərəgitdə 8 kilometrə yaxın fiber-optik kabel çəkilib, 125 ədəd ağac və dəmir dirək basdırılıb, 54 abunəçi yeni xidmətdən yararlanır və gündəlik yeni qoşulmalar davam edir.

Yeni GPON texnologiyasının tətbiqi ilə abunəçilər daha yüksəksürətli (100 mbit/s-dək) internetdən istifadə imkanı qazanırlar.

Qeyd edək ki, müasir texnologiyaların tətbiqi istiqamətində görülən planlı işlərin digər bölgələrdə də aparılması nəzərdə tutulub.

# Tikinti fəaliyyətinin təkmilləşdirilməsi dövrün tələbidir



## Prezident İlham Əliyev: "Biz indi bu mərhələdə imkan verə bilmərik ki, inşaatda şəhərsalma normaları pozulsun"

*Əvvəli 1-ci səh.*

Amma əldə olunan bu uğurlara baxmayaraq, tikinti fəaliyyətinin idarə edilməsində və təşkilində problemlər də mövcuddur. Prezidentin "Azərbaycan Respublikasında tikinti sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında" 30 avqust 2007-ci il tarixli Fərmanı ilə müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarına ciddi tapşırıqlar verilməsinə baxmayaraq, dövlət başçısının özünün də dediyi kimi, şəhərsalma prinsiplərinin, norma və qaydalarının pozulması hallarına hələ də rast gəlinir. İlk növbədə tikinti müddətinə norma daxilində əməl olunması təmin edilmir. Nəticədə dövlət vəsaitləri hesabına tikilən obyektlərin istifadəyə verilməsinin faktiki müddəti normadan 1,2-1,5 dəfə çox olur. Məsələn, 2020-ci ildə yekunlaşmamış tikintinin həcmi dövlət investisiyalarının üçdə birindən çoxunu təşkil etmişdir. Tikinti-quraşdırma işlərinin əsas kapitalda xüsusi çəkisinin 2007-ci ildəki 52 faizdən 2020-ci ildə 64 faizə qədər artmasına baxmayaraq, tikinti obyektlərində quraşdırılan avadanlıqların, maşın və mexanizmlərin payı 27 faizdən 17 faizə enmişdir. Bu isə sənaye və digər iqtisadi sektorlarda modernləşməni və texniki tərəqqini ləngitmişdir. Yeri gəlmişkən, qeyd edək ki, ikinci Dünya müharibəsindən sonra iqtisadi inkişafı sürətləndirmək üçün Yaponiya hökuməti investisiyaların əsasən avadanlıqlar, maşın və mexanizimlərin alınmasına və quraşdırılmasına sərf edilməsi haqqında qərar qəbul etmişdir. İstər sahibkar, istərsə də dövlət təsərrüfat subyekti üçün bu qərarın icrası məcburi idi.

Tikinti sektorunun təşkili və idarəolunmasının keyfiyyətini xarakterizə edən göstəricilərdən biri də əhalinin və infrastruktur obyektlərinin istilik təchizatıdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ildə əhalinin istilik təchizatı ilə təminatı 2000-ci ilə nisbətən 3 dəfəyə qədər aşağı düşmüşdür. Çünki 2000-ci ilin əvvəlindən istilik təchizatını təmin edən qazanxanaların əksəriyyəti sökülərək yerində çoxmərtəbəli yaşayış binaları tikilməyə başlamışdır. Yeni binaların tikildiyi həmin ərazilərdə isə mərkəzləşdirilmiş qazanxanaların layihələndirilməsi nəzərə alınmırdı. Ona görə də əhali kütləvi qaydada kombilərdən və kondisionerlərdən istifadə etmək məcburiyyətində qalmışdı. Bu isə digər fəsadlarla yanaşı, həm də enerji resurslarının israfçılığı deməkdir.

Ölkə qarşısında duran vəzifələri, qəbul edilmiş çoxsaylı strateji dövlət proqramlarını uğurla həyata keçirmək üçün iqtisadiyyatın əsas sahəsi olan tikinti kompleksinin qarşısında duran təxirəsalınmaz problemləri həll etmək vacibdir. Onlardan biri əsaslı tikintidə layihə-axtarış və yerinə yetirilən tikinti-quraşdırma işlərinin dəyərinin cari qiymətlərlə tərtib edilməsidir. Çünki bu problemlə bağlı Nazirlər Kabineti tərəfindən müvafiq qərarların qəbul edilməsinə baxmayaraq, 2004-cü ildən 2021-ci ilə qədər onların icrası təmin olunmamışdır. Tikintidə müqavilə qiymətlərinin hesablanmasında 1992-ci ilin yanvarında qəbul olunmuş normalar və qiymətlər sisteminə əsaslanan "bazis əmsal" üsulundan istifadə edilirdi. Bu da dövlət vəsaitlərinin israfçılığına gətirib çıxarırdı. Odur ki, Nazirlər Kabinetinin 2021-ci il 9 yanvar tarixli qərarına əsasən, 2021-ci ilin oktyabrından tikinti obyektlərinin qiymətləndirilməsi üçün yeni smeta-normativ və qiymətqoyma sistemi əsasında resurs metodu tətbiq olunur. Lakin hazırda yalnız dövlət vəsaiti hesabına maliyyələşdirilən tikinti obyektlərində bu metoddan istifadə edilir. Özəl sektorda isə hələ də "bazis əmsal" üsulu tətbiq olunur.

Tikintisi nəzərdə tutulan obyektlərin smeta dəyərinin müəyyənləşdirilməsi çoxpilləlidir və neqativ təsirlərə şərait yaradır. Belə ki, hazırlanmış layihə-smeta sənədləri Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təchizatdankənar Dövlət Ekspertiza Baş İdarəsində ekspertizadan keçirildikdən sonra nazirliyin tabeliyində olan Tikintidə Qiymətqoyma Mərkəzində obyektin yekun smeta qiyməti müəyyənləşdirilir. Belə köhnəlmiş yanaşma elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqini stimullaşdırmır, əksinə, tikintinin dəyərini yüksəldir. Hesab edirik ki, obyektin smeta dəyərinin düzgün müəyyən edilməsi mütləq qaydada müvafiq qurum və təşkilat tərəfindən ciddi yoxlanılmalı, qiymətlərin süni şəkildə artırılmasına yol verilməməlidir. Elə bir şərait yaradılmalıdır ki, layihə-smeta sənədlərini tərtib edən təşkilatlar normativlərin təsdiq olunması mərhələsində lazımsız məmur razılaşdırmalarına məruz qalmasın. Ümumiyyətlə, normativlərin hazırlanması ilə mülkiyyət formasından asılı olmayaraq profilli layihələndirmə elmi-tədqiqat institutları, attestasiya və akkreditə edilmiş ixtisaslaşmış təşkilatlar məşğul olmalıdırlar. Bu və digər məsələlər isə "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi"ndə nəzərdə tutulmalıdır. Qüvvədə olan məcəllənin təkmilləşdirilməsində dövlət orqanlarında çalışan mütəxəssislərlə yanaşı, müstəqil qeyri-dövlət təşkilatlarının nümayəndələrini də cəlb etmək vacibdir.

Şəhərsalma fəaliyyəti sahəsində nəzarət və icazə funksiyalarının təkmilləşdirilməsi və dövlət xidmətlərinin göstərilməsinin optimallaşdırılması üzrə tədbirlər planının hökumət səviyyəsində hazırlanması zamanı da gəlib çatmışdır. Bu sənəddə layihə sənədlərinin ekspertizadan keçməsi və tikinti üçün icazənin alınması prosesini sürətləndirən vasitələrin qeyri-dövlət ekspertizası nəzərdə tutulmalıdır. Çünki tikintidə normativlərin hazırlanması və qiymətqoyma sahəsində islahatlar aparılmaqla yaxın gələcəkdə Avropa standartlarına uyğunlaşmaq lazımdır.

Acı həqiqətdir ki, inşaat şirkətlərinin müəyyən olunmuş tələblərə və təhlükəsizlik qaydalarına əməl etməmələri səbəbindən tikintilərdə qəza halları, yanğınlar və insanların zədə alması və həlak olması ilə nəticələnən bədbəxt hadisələr baş verir. Şirkətlər tərəfindən əmək müqavilələrinin bağlanmaması isə işçilərin əmək hüquqlarını pozur və üstəlik, vergidən yayınma hallarına yol açır. Tikinti üçün torpaq sahələri ayrılarkən mühəndis-axtarış işlərinin lazımi səviyyədə aparılmaması, tikinti işlərinin mövcud kommunikasiya xətlərinin təhlükəsizlik zolaqlarında həyata keçirilməsi, layihələndirmə sənədlərinin düzgün hazırlanmaması, tikintidə keyfiyyətsiz, standartlara cavab verməyən materiallardan istifadə olunması, tikinti norma və qaydalarının kobudcasına pozulması halları da görülən tədbirlərə baxmayaraq davam edir. Və bütün bunlar o vaxt baş verir ki, Azərbaycanın şəhərlərində, xüsusilə Bakıda mənzil tikintisi geniş vüsət almışdır. Əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi nəticəsində mənzil tikintisinə yönəldilən investisiyaların həcmi 2020-ci ildə 2010-cu ilə nisbətən 1,6 dəfədən çox artmışdır. Bu isə qeyd etdiyimiz nöqsanların da artması deməkdir.

Həllini gözləyən problemlərdən biri də tikinti layihəsinin etibarlıq və təhlükəsizlik baxımından şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması üçün dövlət ekspertizasından keçirilməsidir. Keçən illərin təcrübəsi göstərir ki, şəhərlərimizdə faktiki olaraq ekspertizadan keçmiş, lakin şəhərsalma norma və qaydalarına zidd olan çoxsaylı obyektlər, xüsusən yaşayış evləri inşa edilir. Bunun əsas səbəbi ekspertizanı keçirən dövlət idarəsinə kənardan digər qurumlar tərəfindən göstəriş və təzyiqlərin olunmasıdır. Odur ki, bütün tikinti layihələrinin ekspertizası yalnız müstəqil təşkilat tərəfindən aparılmalıdır. Yeri gəlmişkən, qeyd edək ki, layihələrin ekspertizasına belə yanaşma 2019-cu ildə qəbul edilmiş "Texniki tənzimləmələr haqqında" qanunda da nəzərdə tutulmuşdur.

Başqa bir məsələ: şəhər yerlərində mənzil tikintisi 2020-ci ildə 2010-cu ilə nisbətən 3,3 dəfə artdığı halda, kənd yerlərində 1,2 dəfədən çox aşağı düşmüşdür. 2020-ci ildə ölkə üzrə mənzil tikintisinin yalnız 9,7 faizi kənd yerlərində həyata keçirilmişdir. Burada ziddiyyət həm də ondan ibarətdir ki, məsələn, 2020-ci ildə 2009-cu illə müqayisədə şəhər əhalisi 12,1, kənd əhalisi isə, nə qədər qəribə də olsa, 13,7 faiz artmışdır. Deməli, bu ziddiyyət kənd əhalisinin şəhərlərə axını ilə əlaqədardır.

Ölkə iqtisadiyyatının əsas fondlarının formalaşmasında böyük paya malik olan tikinti sektorunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yenilənməsi, inşaat materialları sənayesinin xammal təminatçısı olan mineral xammal ehtiyatlarının səmərəli istifadəsi onların geotexniki tədqiqatını vacib edir. Tikintidə yeni texnologiya və texnikanın tərəqqisinə cavab verən tikinti materialları istehsalının qurulması, yerli resurslara əsaslanan sənayeləşmənin təmin edilməsi ölkənin dayanıqlı və rəqabətədavamlı iqtisadiyyatını şərtləndirən əhəmiyyətli faktorlardır. Bu yerdə qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması da mineral xammal ehtiyatlarından istifadəyə kompleks və sistemli yanaşma tələb edir. Çünki qeyri-filiz xammal ehtiyatlarının istifadəsi inşaat materialları sənayesinin təşəkkülü və inkişafı deməkdir. Bu baxımdan bir sıra müvafiq qurumların bazalarında publik hüquqi şəxs statusunda Tikinti Materialları Sənayesi Agentliyinin yaradılması məqsədəuyğun olardı. Bununla da tikinti materiallarının, əsasən də qeyri-filiz xammal ehtiyatlarının ölkədə, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında geoloji, iqtisadi, texnoloji dəyərləndirilməsinə, tikinti materialları sektorunda azad rəqabət mühitinin və dəyər zəncirinin formalaşmasına, tələbatın əsasən yerli istehsal hesabına qarşılanmasına etibarlı zəmin yaradılardı.

Söz düşmüşkən, onu da bildirək ki, işğaldan azad edilmiş ərazilərdə misli görünməmiş tikinti-quraşdırma və abadlıq işlərinin həyata keçirilməsi, sənaye parklarının yaradılması, yolların və körpülərin, "ağıllı" yaşayış məntəqələrinin salınması və s. işlər ölkə iqtisadiyyatının vacib sektorlarından biri olan tikintinin təşkilində idarəetmə strukturunun təkmilləşdirilməsini zəruri edir. Hələ 2020-ci ildə Prezident İlham Əliyev demişdir: "Müəyyən dövrlərdə şəhərsalma qaydaları kobudcasına pozulmuşdur. Bakının müxtəlif yerlərində tarixi keçmişimizə zidd olan, heç bir memarlıq standartına uyğun olmayan yöndəmsiz və eybəcər binalar tikilmişdir. Biz imkan verə bilmərik ki, hansısa bir təmənnaya, hansısa bir hərisliyə görə şəhərimizin keçmişini məhv edək, yaxud da şəhərimizin gələcəyini şübhə altına qoyaq. Qətiyyən bu olmayacaqdır. Bütün biznes dairələri, inşaatla məşğul olan bütün şirkətlər bilsinlər ki, bundan sonra harada gəldi bina, ev tikmək praktikasına artıq son qoyulubdur. Bütün evlər, binalar şəhərsalma qaydalarına uyğun şəkildə tikilməlidir".

Prezidentin sözünə qüvvət olaraq bildirək ki, Bakının mərkəzində mənzil tikintisinin qarşısı alınmalıdır. Çünki paytaxtın mərkəzində böyük sıxlıq var. Nəzərə alsaq ki, keçən əsr Bakının mərkəzində tikilmiş yararsız, fiziki cəhətdən köhnəlmiş, müasir tələblərə cavab verməyən yaşayış binaları hələ çoxdur, deməli, bu təhlükə hələ tam sovuşmayıb. O üzdən hesab edirik ki, həmin binaların sökülməsini, yenilərinin inşa edilməsini, abadlaşdırma işlərinin aparılmasını və orada yaşayan sakinlərin köçürülməsini tənzimləyən normativ-hüquqi akt qəbul olunmalıdır. Bakının yeni hazırlanmış baş planına uyğun olaraq yaşayış binaları yeni ərazilərdə tikilməlidir. Bu işləri aparmaq üçün mənzil tikintisini aparan sahibkarlara dövlət tərəfindən stimul yaradılmalı, o cümlədən güzəştli şərtlərlə şəhər mərkəzindən kənarda torpaq sahəsi ayrılmalı və lazım gələrsə kredit verilməlidir.

*Eldar NURİYEV,*
*Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru*

# II Milli Yaylaq Festivalının rəsmi açılış mərasimi keçirilib













İyulun 30-da Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği, yaylaq və elat mədəniyyətinin yaşadılması və beynəlxalq miqyasda tanıdılması məqsədilə keçirilən II Milli Yaylaq Festivalının rəsmi açılış mərasimi olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, festivalın rəsmi açılış mərasimində qonaqları simvolik olaraq Dədə Qorqud qarşılayıb, söz söyləyib, xeyir-dua verib. Sonra nağaraçılar və igidlərin qılınc rəqsi nümayiş olunub.

Rəsmi açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev, Türkiyənin Gəncədəki Baş konsulu Zəki Öztürk, Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov, "Cavadxan" Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti, II Milli Yaylaq Festivalının layihə rəhbəri Müzadil Həsənov, həmçinin idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər.



Qonaqlar etno-qəsəbənin ərazisində yaşayış yurdları (alaçıqlar), Cıdır Meydanı, "Yaylaq (k/t) bazarı", "Sənətkarlıq guşəsi", "Dədə Qorqud ocağı" (tamaşalar üçün səhnə), "Yaylaq yatağı" (k/t heyvanları üçün yerlər), "Pəhləvan meydanı" (yarış sahəsi), "Aşıq Ələsgər ocağı", "Yaylaq süfrəsi" (yaylaq kulinariyası) və digər müxtəlif mövzulu sahələrə baxış keçirib, etnik musiqi qruplarının ifaları, yerli kollektivlərin çıxışları, aşıq deyişməsi, milli rəqslər, xalq mahnıları, Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyət nümunələri, səhnəciklər və teatral kompozisiyalar, qədim xalq oyunları, sənətkarlıq məhsulları, milli geyim nümunələri ilə tanış olublar.

Qeyd edək ki, II Milli Yaylaq Festivalı "Cavad xan" Tarix və Mədəniyyət Fondunun və "Kap.az" - Fərqli Turizm MMC-nin təşəbbüsü, Mədəniyyət Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Gənclər və İdman Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, Dövlət Məşğulluq Agentliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, Göygöl Rayon İcra Hakimiyyəti, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Dünya Etnoidman Konfederasiyası və digər dövlət və özəl qurumların tərəfdaşlığı və dəstəyi ilə keçirilir. AZƏRTAC II Milli Yaylaq Festivalının informasiya tərəfdaşlarındandır.

# Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları Qafqaz Müsəlmanları İdarəsində olublar



İyulun 30-da Qafqaz Müsəlmanları İdarəsində (QMİ) XII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən QMİ sədrinin birinci müavini, müfti Hacı Salman Musayev tədbir iştirakçılarına idarənin tarixi haqqında ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, ölkəmizdə insanların əksəriyyəti islam dininə mənsub olsa da, Azərbaycanda bütün dini inanclara hörmətlə yanaşılır. Azərbaycan multikultural ölkə kimi bütün dünyaya örnəkdir. Burada hər bir millətdən olan insanların azad və sərbəst yaşaması üçün bütün şərait yaradılıb. Azərbaycanda dini ayrı-seçkilik yoxdur və bundan sonra da olmayacaq. Müstəqillik dövründən sonra milli azlıqlar üçün yaradılan şərait daha da yaxşılaşdırılıb.

QMİ sədrinin birinci müavini tədbir iştirakçılarına uğurlar arzulayıb.

Sonra qonaqların sualları cavablandırılıb, xatirə şəkli çəkilib.

Qeyd edək ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) iyulun 24-dən "Multikulturalizm siyasəti qlobal və regional sülhün açarı kimi" adlı XII Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsinə start verib. Multikulturalizm Mərkəzi yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr gerçəkləşdirir. Mərkəzin önəmli layihələrindən biri də artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləridir. Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Yay və Qış məktəbləri-tədris layihəsi çərçivəsində hazırda dünyanın 24 nüfuzlu ali təhsil ocağında, eləcə də ölkəmizdə Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunur. Layihənin məqsədi həmin gənclərin nəzəri biliklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır. XII Beynəlxalq Multikulturalizm Yay Məktəbində 14 ölkənin - Azərbaycan, Ukrayna, Rusiya, Türkiyə, Fransa, İspaniya, Misir, Türkmənistan, Gürcüstan, Rumıniya, Qana, Nigeriya, Bolqarıstan, Suriya kimi ölkələrin aparıcı universitetlərindən 20-dən artıq tələbə iştirak edir. Yay məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc-yanaşı yaşaması haqqında mühazirələr təqdim edilir. Yay məktəbi çərçivəsində Şəkidə Karvansaray, Xan sarayı kompleksinə, Qəbələdə udilərin yaşadığı Nic qəsəbəsinə, Alban-udi xristian kilsəsinə, Qaxda Kürmük məbədinə ziyarət də nəzərdə tutulub.

# XII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin bağlanış mərasimi olub





Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə reallaşan "Multikulturalizm siyasəti qlobal və regional sülhün açarı kimi" adlı XII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iyulun 30-da bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər ki, tədbirdə çıxış edən BBMM-in icraçı direktoru Rəvan Həsənov Yay Məktəbi haqqında məlumat verib. Qeyd edib ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr reallaşdırır. Diqqətə çatdırıb ki, bu cür məktəblərin təşkil edilməsi həm də digər ölkələrlə əməkdaşlığın qurulması üçün bir vasitədir.

İcraçı direktor Azərbaycana göstərdikləri marağa və ölkəmizdə keçirilən bu Yay məktəbində iştirak etdiklərinə görə iştirakçılara öz minnətdarlığını bildirib.

Daha sonra Yay məktəbinin iştirakçılarına sertifikatlar təqdim edilib.

Qeyd edək ki, Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Yay və Qış məktəbləri tədris layihəsi çərçivəsində hazırda dünyanın 24 nüfuzlu ali təhsil ocağında, eləcə də ölkəmizdə Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunur. Layihənin məqsədi həmin gənclərin nəzəri biliklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

XII Beynəlxalq Multikulturalizm Yay Məktəbində 14 ölkənin - Azərbaycan, Ukrayna, Rusiya, Türkiyə, Fransa, İspaniya, Misir, Türkmənistan, Gürcüstan, Rumıniya, Qana, Nigeriya, Bolqarıstan, Suriya kimi aparıcı universitetlərindən 20-dən çox tələbə iştirak edib. Yay məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc-yanaşı yaşaması haqqında mühazirələr təqdim olunub.

# Avqustda havanın orta aylıq temperaturunun bəzi yerlərdə iqlim normasından bir qədər yüksək olacağı gözlənilir

Avqust ayında havanın orta aylıq temperaturunun bəzi yerlərdə iqlim normasından bir qədər yüksək olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı ehtimal edilir. Birinci ongünlüyün ortalarında havanın nisbətən sərinləşəcəyi, temperaturun norma daxilində olacağı ehtimalı var.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın orta aylıq temperaturunun 26-29° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturu gecələr 21-26°, gündüzlər 34-38° isti, bəzi günlərdə 40-42° isti olacaq. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 6-8 millimetr).

Naxçıvan Muxtar Respublikasında havanın orta aylıq temperaturunun 26-30° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturu gecələr 21-26°, gündüzlər 33-38° isti, bəzi günlərdə 40-43° isti olacağı proqnozlaşdırılır. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər az olacağı bildirilir (norma 6-10 millimetr).

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında havanın orta aylıq temperaturunun 18-22° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturu gecələr 12-17°, gündüzlər 20-25° isti, bəzi günlərdə 28-33° isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarı iqlim normasına yaxın olacaq (norma 32-55 millimetr).

Gəncə şəhərində, Qazax, Ağstafa, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında havanın orta aylıq temperaturunun 26-28° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 19-24°, gündüzlər 32-37° isti, bəzi günlərdə 37-42° isti olacağı ehtimalı var. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı ehtimal edilir (norma 15-27 millimetr).

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın orta aylıq temperaturu 23-27° isti olacaq. Bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 18-23°, gündüzlər 30-35° isti, bəzi günlərdə 37-39° isti olacağı bildirilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı proqnozlaşdırılır (norma 13-116 millimetr).

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın orta aylıq temperaturunun 27-30° isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 21-26°, gündüzlər 33-38° isti, bəzi günlərdə 40-43° isti olacağı ehtimal edilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı ehtimalı var (norma 6-22 millimetr).

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında havanın orta aylıq temperaturu 24-28° isti olacaq. Bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Havanın temperaturunun gecələr 19-24°, gündüzlər 30-34°isti, bəzi günlərdə 36-38° isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarı iqlim normasına yaxın olacaq (norma 13-83 millimetr).

# Kəlbəcər və Laçında yerləşən mövqelərimiz atəşə tutulub

İyulun 30-u günorta saatlarından etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan intensiv atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

# Baş Prokurorluq media subyektlərinə və sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edib

Aparılan monitorinqlərlə müəyyənləşdirilib ki, mediada informasiyanın dərc olunması zamanı bəzi hallarda "Media haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.11-ci maddəsinin tələbləri, yəni faktların və hadisələrin qərəzsiz və obyektiv təqdim olunması, birtərəfliliyə yol verilməməsi haqqında tələblərə riayət olunmayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ictimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının pozulmasına yönələn halların qarşısının alınması üçün aidiyyəti şəxslər Baş Prokurorluğa dəvət olunmaqla barələrində prokuror təsir tədbirləri görülüb. Belə ki, Səxavət Məmmədov, Rövşən Məmmədov, Zülfüqar Ələsgərov, Elgün Rəhimov, Füzuli Qəhramanı, Zeynal Baxşiyev və Ruslan İzzətliyə "Prokurorluq haqqında" qanunun 22-ci maddəsinə əsasən gələcəkdə bu kimi neqativ hallara yol verməmələri ilə bağlı xəbərdarlıq edilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu media subyektləri və sosial şəbəkə istifadəçilərinə müraciət edərək bir daha bildirir ki, dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparmadan yoxlanılmamış məlumatların yayılması yolverilməz olmaqla qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

# Qubada şəhid qardaşının toyunda kövrək hisslər yaşanıb

Qubada şəhid Nizami Aydəmirovun qardaşının toy mərasimi kövrək anlarla yadda qalıb. Alekseyevka kəndindəki şadlıq sarayında keçirilən toydan öncə mərasim iştirakçıları rayondakı Şəhidlər xiyabanını ziyarət ediblər.



Bağbanlı kənd sakini Nizam Aydəmirovun toy məclisində ailənin yaxınları, kənd sakinləri ilə yanaşı, Quba Rayon İcra Hakimiyyətinin məsul işçiləri və ictimaiyyət nümayəndləri də iştirak ediblər.

RİH-in başçısı Ziyəddin Əliyev çıxış edərək bildirib ki, bu gün şəhid ailələri və qazilər dövlətin himayəsi altındadırlar: "Aydəmirovlar ailəsi də onlardan biridir. Vətən müharibəsi şəhidi Nizami Aydəmirovun valideynləri bir neçə il əvvəl vəfat ediblər. Aydəmirov bacı-qardaşlarını qəyyumluğa götürən 90 yaşlı ata nənəsi Hürməleykə xanım isə Nizami şəhid olandan bir həftə sonra dünyasını dəyişib. Bütün qubalıların bu ailəyə xüsusi qayğıkeşliyi və hörməti var".

Qeyd edək ki, Nizami Aydəmirov silahlı qüvvələrimizin müddətdən artıq hərbi qulluqçusu idi və 2020-ci il oktyabr ayının 5-də Füzulinin Alxanlı kəndi uğrunda gedən döyüşlərdə şəhid olub.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Gəncədə "ASAN xidmət" könüllüləri "Dəmir yumruq" tamaşası nümayiş etdiriblər

Gəncə Dövlət Dram Teatrında 2 saylı Gəncə regional "ASAN xidmət" mərkəzi könüllülərinin təşəbbüsü ilə "Şuşa ili"nə həsr olunmuş "Dəmir yumruq" tamaşası nümayiş olunub.



Yazıçı-şair, Azərbaycan Yazıçılar Birliyi Gəncə Regional Bölməsinin sədri Xəzangül Hüseynovanın ssenarisi əsasında aktyor-rejissor Mətləb Təhmazinin quruluş verdiyi "Dəmir yumruq" tamaşasının premyerasından əvvəl 44 günlük Vətən müharibəsində şəhid olanlar bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

"Dəmir yumruq" tamaşası adından da göründüyü kimi, 44 günlük Vətən müharibəsinə həsr olunub. Gənclərin maarifləndirilməsi baxımından önəm daşıyan tamaşada igidlərimizin qəhrəmanlığından, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük müharibədə yürütdüyü müdrik siyasətindən bəhs edilir.

Tamaşadan sonra çıxış edən şair-yazıçı Xəzangül Hüseynova, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, teatrşünas-tənqidçi Anar Bürcəliyev, rejissor Mətləb Təhmazi və digərləri tamaşanın əhəmiyyətindən danışıblar. Qeyd edilib ki, bu cür əsərlərin tamaşaya qoyulması gənclərin maarifləndirilməsi baxımından olduqca önəmlidir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Milyonlarla insan ölüm təhlükəsi qarşısındadır

## Dünyada hər dəqiqə bir nəfərin həyatına son qoyan QİÇS-ə qarşı mübarizə səngiyib

Dünyada QİÇS pandemiyası səhiyyənin infeksion xəstəliklər sahəsində ən ciddi problemlərindən biridir. Qazanılmış İmmun Çatışmazlığı Sindromu - QİÇS insanın sonrakı fəaliyyəti nəticəsində "qazandığı", bilərəkdən və ya bilməyərəkdən tutulduğu bir bəladır. Avropa ölkələrinin əksəriyyətində bu xəstəliyə düçar olanların vəziyyətini yaxşılaşdırmaq, cəmiyyətin həmin insanlara münasibətini dəyişdirmək üçün tədbirlər görülür, tibbi, maddi və digər yardımlar göstərilir.




Lakin son dövrlərdə dünyada QİÇS-in qarşısının alınması və müalicəsində irəliləyiş yavaşlayır və milyonlarla insan ölüm riski ilə üz-üzə qalır. BMT-nin İİV/QİÇS üzrə birgə proqramı UNAIDS "Risk altında" adlı yeni hesabatında QİÇS-ə səbəb olan bərabərsizlikləri aradan qaldırmaq üçün təcili tədbirlərin görülməsinə ehtiyac olduğu vurğulanır. Hesabat Kanadanın Monreal şəhərində keçirilən Beynəlxalq Konfransdan əvvəl dərc edilib.

Ümumilikdə 2020-ci ildən 2021-ci ilə qədər qlobal miqyasda yeni İİV infeksiyalarının sayı cəmi 3,6 faiz azalıb ki, bu da 2016-cı ildən bəri ən kiçik illik azalmadır. Şərqi Avropa və Mərkəzi Asiya, Yaxın Şərq və Şimali Afrika, habelə Latın Amerikasında bir neçə ildir ki, İİV-ə yoluxmaların hər il artması müşahidə olunur.

Müsbət tərəfi odur ki, Qərbi və Mərkəzi Afrikada və Karib hövzəsi ölkələrində İİV-ə yeni yoluxma hallarının sayı nəzərəçarpacaq dərəcədə azalıb. Lakin hətta bu regionlarda belə artan resurs çatışmazlığı İİV-ə qarşı cavab tədbirlərinin effektivliyini pozmaq təhlükəsi yaradır.

"Bu məlumatlar QİÇS-ə qarşı qlobal reaksiya üçün ciddi təhlükədir. Tezliklə irəliləyiş əldə etməsək, COVID-19, kütləvi yerdəyişmə və digər böhranlar səbəbindən pandemiya artdıqca mövqelərimizi itirəcəyik. Gəlin, qarşısı alına bilinən milyonlarla ölümləri xatırlayaq", - deyə UNAIDS-in icraçı direktoru Vinni Byanima bildirib.

Qlobal sarsıntılar, o cümlədən COVID-19 pandemiyası və Ukraynadakı münaqişə, İİV-lə mübarizə ilə bağlı sistem üçün riskləri əhəmiyyətli dərəcədə artırıb. Aşağı və orta gəlirli ölkələrdə İİV-ə qarşı mübarizə proqramları üçün daxili maliyyələşdirmə iki il ardıcıl olaraq azalır. Ukraynadakı vəziyyət ərzaq qiymətlərinin kəskin artmasına səbəb olub və bu, İİV-ə yoluxmuş insanlar üçün bütün dünyada ərzaq qıtlığını yaradıb. Bu, həm də xəstələrin müalicəsinin davam etdirilə bilməməsi ehtimalını xeyli artırır.

UNAIDS-in hesabatı göstərir ki, İİV-lə yaşayan bütün insanların həyati əhəmiyyətli antiretrovirus terapiyaya əlçatanlığını təmin etmək səyləri son vaxtlar uğursuzluqla nəticələnib. 2021-ci ildə İİV-dən müalicə alan insanların sayı son on ildəkindən daha ləng artıb. İİV-lə yaşayan bütün insanların dörddə üçünün antiretrovirus terapiya almaq imkanı var, lakin təxminən 10 milyon insan hələ də bundan məhrumdur.

Uşaqlar və böyüklər arasında İİV-in müalicəsi əhatəsində də uçurum daralmır, əksinə, genişlənir. Belə ki, İİV-lə yaşayan uşaqların yalnız 52 faizi antiretrovirus terapiyası alır.

2021-ci ildə QİÇS pandemiyası hər dəqiqə orta hesabla bir insanın həyatına son qoyub, bu səbəbdən ölənlərin ümumi sayı isə 650 min nəfər olub. Vinni Byanima hesab edir ki, bu rəqəmlər siyasi iradənin təzahürüdür: "Qızlarımızın müdafiəsi, onların hüquq və imkanlarının genişləndirilməsi bizi qayğılandırırmı? Uşaqlar arasında QİÇS-lə bağlı ölümləri dayandırmaq istəyirikmi? Biz həyatları xilas etməyi kriminallaşmadan daha üstün tuturuqmu? Əgər belədirsə, onda biz QİÇS-ə qarşı mübarizə tədbirlərini lazımi məcraya qaytarmalıyıq".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Dünya sağlamlıq problemi ilə üz-üzədir

## ÜST artan yoluxmalara görə bir daha ölkələri virusa qarşı mübarizə tədbirlərini gücləndirməyə çağırıb

Bir neçə ay öncəyə qədər pandemiyaya səbəb olan koronavirus bəşəriyyəti təhdid altına alan yeganə bəla idisə, meymunçiçəyindən sonra dünya iki yoluxucu xəstəliklə mübarizə aparmaq məcburiyyətində qalıb.

### Omikronun yeni altvariantlarının ötürücülük qabiliyyəti yüksəkdir

Son iki ilin ardından koronavirusun qismən azalması, vaksinlərin immunitet yaratması xəstəliyin ölüm riskini qismən səngitsə də, hazırda yoluxmaların sayı bəzi ölkələrdə artmağa başlayıb. Ən kəskin vəziyyət isə Yaponiyada müşahidə edilir. Yoluxanların sayının kəskin artması ilə ÜST həyəcan təbilini yenidən çalıb. Hazırda qeydə alınan Omikron ştamının BA4 və BA5 variantlarıdır. Bu altnövlər sürətli yoluxuculuğu ilə infeksiya dalğasını da artırır.

Ümumdünya Səhiyyə Təşkilatının verdiyi son məlumatlara əsasən, hazırda qlobal miqyasda koronavirus yoluxmalarının təxminən yarısı BA5 variantıdır. Çinin Uhan şəhərində isə yenidən karantin elan edilib. 3 gün müddətində mübarizə tədbirləri olduqca gücləndirilib. Ümumilikdə bu virusun yayılmağa başladığı şəhər olan Uhan pandemiyanın başladığı dövrdən ən çox qapanmaların tətbiq edildiyi şəhər olub.

### Mübarizə tədbirləri gözardı edilməməlidir

ÜST artan yoluxmalar nəticəsində bir daha dünya ölkələrini daim virusa qarşı mübarizə tədbirlərinə diqqət etməyə çağırıb. Qeyd edilir ki, başlıca olaraq insanlar peyvənd olunmalıdırlar, yoluxmaların artacağı təqdirdə isə maskalardan istifadə etməlidirlər. Açıqlamalarda o da bildirilib ki, virusa yoluxmuş və ölüm ehtimalı qeydə alınan xəstələrin böyük əksəriyyəti peyvənd olunmayan şəxslərdir. Hazırda dünya əhalisinin 66,8 faizi ən az bir doza COVID-19 peyvəndi vurdurub.

Azərbaycanda da birrəqəmli göstəricilər son həftələrdə artaraq 3 rəqəmliyə çatıb. Dünyada və qonşu ölkələrdə artan say ölkəmizə də öz təsirini göstərib. Odur ki, baş verə biləcək vəziyyətə qarşı lazımi tədbirlər görülüb, modul tipli xəstəxanalar hər an xəstələri qəbul etmək üçün hazır vəziyyətə gətirilib.

Hazırda Omikron ştamı və onun altvariantlarının ölümcül riski digərlərinə nisbətən az olsa da, yoluxmadan müdafiə üçün sadə qaydalara əməl etmək lazımdır. Əhali arasında artıq COVID-19-la bağlı adi respirator virus infeksiyalarından biri kimi fikirlər formalaşsa da, sayların artacağı təqdirdə hər kəs məsuliyyətli davranmalıdır. Çünki laqeydliklə bu virusa təkcə özümüzü yox, bütün yaxınlarımızı və çevrəmizi də yoluxdura bilirik.

### Meymunçiçəyi virusu 78 ölkədə qeydə alınıb

Omikronla yaşadığımız dövrdə daha bir bəşəri xarakter alan meymunçiçəyi virusu da artmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatından məlumat verilir ki, indiyədək 78 ölkədə 18 mindən çox meymunçiçəyi virusuna yoluxma halı və 5 ölüm faktı qeydə alınıb.

ABŞ isə meymunçiçəyinə yoluxan ölkələr arasında birinci yerdədir. Bu məqsədlə ölkədə peyvəndlənmə vacib hal kimi qiymətləndirilib. Təmasdan sonra vaksin vurdurmaq profilaktik tədbir kimi virusa yoluxma riskini azaldır. Səhiyyə təşkilatları tərəfindən vurğulanır ki, peyvənd nə qədər tez vurularsa, yoluxuculuq da bir o qədər azalar.

### Dünya ölkələri peyvənd tədarükü görür

Yoluxma riskinin çox olduğu ölkələr peyvənd tədarükü görərək ehtimal edilən vəziyyətə dair riskləri azaltmağa çalışırlar. Hazırda yalnız yoluxmuş və ya virusa yoluxan şəxslə təmasda olanlara vaksin tətbiq edilir.

ÜST-ün baş direktoru Tedros Adhanom Gebreyesus çıxışında söyləyib ki, meymunçiçəyinə qarşı tətbiq edilən vaksinlərin effektivliyi ilə bağlı kifayət qədər məlumat olmadığından kütləvi peyvəndləmə tövsiyə edilmir. Eyni zamanda baş direktor bütün ölkələri peyvəndlərin təsiri ilə bağlı məlumatları toplayaraq paylaşmağa çağırıb.

Ölkəmizdə meymunçiçəyinə yoluxma faktı aşkarlanmasa da, bununla bağlı risk hər zaman mövcuddur. Azərbaycanda xəstəliklə mübarizə aparmaq üçün kifayət qədər müvafiq tədbirlər görülüb. Amma meymunçiçəyinin geniş yayılması virusun mutasiya edərək yoluxuculuq qabiliyyətinin artmasının göstəricisidir. Odur ki, vətəndaşlar meymunçiçəyi virusunun simptomlarını müşahidə etdikləri zaman təcrid olunmalı və həkimə müraciət etməlidirlər. Daimi olaraq bütün viruslardan qorunmaq üçün gigiyenik qaydalar mübarizədə ilkin effektiv üsuldur, onlara əməl etmək lazımdır.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*








BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5460
Sifariş 2046
Qiyməti 40 qəpik